# ÜDM DƏ ARTDI, GÖZLƏNTİLƏR DƏ...

Açıqlanan statistika Azərbaycan iqtisadiyyatında dayanıqlı inkişafın davam etdiyini göstərir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-iyun aylarında ölkədə 65 milyard 207 milyon manatlıq Ümumi Daxili Məhsul (ÜDM) istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz çoxdur. Bəs bu artım necə qiymətləndirilməlidir? Artımın əsas mənbələri nələrdir və ilin ikinci yarısında dinamikanın sürətlənməsi mümkündürmü?

SƏHİFƏ 7-də




‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

18 İYUL ŞƏNBƏ 2026 № 26 (4277) Qiyməti - 60 qəpik www.kaspi.az






## DİPLOMATİK HÜDUDLARI AŞAN ƏMƏKDAŞLIQ

Peter Pelleqrininin Azərbaycana budəfəki səfəri özünün əhatə dairəsi baxımından xüsusilə seçildi. Səfər həm də Azərbaycanın beynəlxalq miqyasda artan rolunun göstəricisi olaraq mühüm əhəmiyyətə malikdir.

SƏHİFƏ 4-də



## KÜLƏKLİ HAVA, QADAĞALARA LAQEYD MÜNASİBƏT

Çimərlik mövsümünün başlaması ilə dənizdə boğulma halları da artır. Səbəb kimi dənizin təbii xüsusiyyətlərinin dəyişməsi, suyun çəkilməsi, relyefin fərqli olması ilə bağlı fikirlər səsləndirilir.

SƏHİFƏ 13-də



## QIZI İLƏ EYNİ İLDƏ MƏZUN OLAN ANA

Ali təhsil almaq arzusuna 20 il sonra çatan Aygün Qasımova: “Nərmin 10-cu sinifdə oxumağa başlayanda “mən də səninlə birlikdə hazırlaşım” dedim. Buna daxilən hazır olduğumu hiss etdim”.

SƏHİFƏ 9-da

## “MƏN HƏR KƏSİ MƏSULİYYƏTLİ OLMAĞA ÇAĞIRIRAM”

# ŞUŞADA TƏQDİM OLUNAN UĞUR MODELİ




Bu gün Azərbaycan Çin, ABŞ, Rusiya, Avropa İttifaqı, Afrika ölkələri, həmçinin region dövlətləri ilə çox sıx və qarşılıqlı faydaya, iqtisadi maraqlara əsaslanan uğurlu əməkdaşlıq modeli qurub.

### BAKININ XARİCİ SİYASƏT PRİNSİPLƏRİ

IV Şuşa Qlobal Media Forumu bir daha bütün dünyaya Azərbaycanın xarici siyasət kursunun nümunəvi bir model olduğunu nümayiş etdirdi. Prezident İlham Əliyevin Forumda səsləndirdiyi fikirlər rəsmi Bakının xarici siyasətdə üstünlük verdiyi prinsipləri bir daha gündəmə gətirdi.




### UĞURLU ƏMƏKDAŞLIQ MODELİNİN SİRRİ

Uğurun sirrini Prezident İlham Əliyev Forumda çıxışı zamanı belə izah edib: “Biz kifayət qədər uzun müddət ərzində bağlantılar üzərində işləmişik. Biz bəlkə də 10 ildən artıqdır çalışdıq, coğrafi mövqeyimizin üstünlüklərindən istifadə edərək, onları çoxtərəfli əməkdaşlıq üçün real platformaya çevirək”.

SƏHİFƏ 3-də




## SOCAR SÜNİ İNTELLEKTİN TƏTBİQİNİ GENİŞLƏNDİRƏCƏK

SOCAR-da rəqəmsal transformasiya üzrə həyata keçirilən layihələr istehsalatın, korporativ idarəetmənin daha da təkmilləşdirilməsinə, vahid rəqəmsal ekosistemin formalaşdırılmasına mühüm töhfə verir.

SƏHİFƏ 10-da




## FORBES: HABER GLOBAL ƏN YAXŞI İŞƏGÖTÜRƏNLƏR ARASINDA

“Haber Global” televiziya kanalı “Forbes Türkiyə” və “Statista”nın birgə keçirdiyi araşdırmanın nəticələrinə əsasən, ölkənin ən yaxşı işəgötürənləri sırasında yer alıb və rəsmi sertifikata layiq görülüb.

SƏHİFƏ 2-də



## ƏMLAK BAZARINDA NİSBİ SABİTLİK

Azərbaycanda əmlak qiymətlərində xeyli müddətdir müşahidə olunan sürətli artım tempi zəifləyib. Bu tendensiya ilk baxışda sektorda sabitlik yarandığını göstərsə də, ekspertlər fərqli düşünürlər.

SƏHİFƏ 8-də



Pekin 2027-ci ilə hazırlaşır

SƏHİFƏ 5-də



İsti havalarda bu səhvləri etməyin!

SƏHİFƏ 12-də



Demoqrafiyada narahatedici statistika

SƏHİFƏ 11-də



“Mənim evim-eşiyim mədənlər olub”

SƏHİFƏ 15-də



Kondisionerdən istifadənin qızıl qaydaları

SƏHİFƏ 14-də




# Forbes: Haber Global ən yaxşı işəgötürənlər arasında

"Global Media Group"un tərkibinə daxil olan "Haber Global" televiziya kanalı "Forbes Türkiyə" və dünyanın aparıcı data və biznes analitikası platformalarından biri olan "Statista"nın birgə keçirdiyi "Türkiyənin Ən Yaxşı İşəgötürənləri 2026" araşdırmasının nəticələrinə əsasən, ölkənin ən yaxşı işəgötürənləri sırasında yer alıb və rəsmi sertifikata layiq görülüb.

Araşdırmanın metodologiyasına əsasən, siyahı Türkiyə əmək bazarında fəaliyyət göstərən şəxslər arasında keçirilən müstəqil onlayn sorğunun nəticələri əsasında formalaşdırılıb. 2025-ci ilin oktyabrından 2026-cı ilin fevralınadək davam edən araşdırma çərçivəsində iştirakçıların həm öz işəgötürənləri, həm də fəaliyyət göstərdikləri sahədəki digər şirkətlərlə bağlı 200 mindən çox qiymətləndirməsi toplanıb. Araşdırma anonim və müstəqil şəkildə həyata keçirilib. Şirkətlərin müraciət və ya ödəniş yolu ilə siyahıya daxil olması mümkün olmayıb, qiymətləndirmə zamanı yalnız əməkdaşların rəyləri əsas götürülüb.

Ən yüksək nəticə göstərən 400 şirkət sırasında yer alan "Haber Global"ın bu uğuru telekanalın işəgötürən brendinin əməkdaşlar tərəfindən müsbət qiymətləndirildiyini göstərir. "Haber Global"ın nüfuzlu siyahıda yer alması telekanalın daxili korporativ mədəniyyətinə, əməkdaşlara yanaşmasına və keyfiyyətli iş mühitinin formalaşdırılmasına verdiyi önəmin göstəricisidir. Bu nəticə, eyni zamanda, telekanalın media sektorunda etibarlı və cəlbedici işəgötürən mövqeyini gücləndirir.

Qeyd edək ki, "Global Media Group" 2017-ci ildə təsis edilən aparıcı media şirkətlər qrupudur. Qrupa Azərbaycanda və ölkə xaricində fəaliyyət göstərən televiziya kanalları, informasiya agentlikləri, xəbər portalları, qəzetlər və digər media resursları daxildir.



# PREZİDENT SƏFİRLƏRİN ETİMADNAMƏLƏRİNİ QƏBUL EDİB

**Prezident İlham Əliyev Braziliya, Kamboca, Oman və İrlandiyanın ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri ilə görüşüb. Görüşlərdə ikitərəfli əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.**

Azərbaycan Prezidenti İlham Əliyev bir sıra dövlətlərin ölkəmizə yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib. Dövlət başçısı səfirlərlə söhbət edib, ikitərəfli əməkdaşlıqla bağlı fikir mübadiləsi də aparıb.

### COP SAHƏSİNDƏ UĞURLU ƏMƏKDAŞLIQ

Braziliyanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernard Jorj Leopold de Qarsia Klinqli qəbul edərkən dövlət başçısı ikitərəfli münasibətlərin inkişafından məmnunluğunu bildirərək, siyasi, iqtisadi-ticari, sərmayələr, turizm sahələrində əməkdaşlığın genişləndirilməsinin və müxtəlif səviyyələrdə təmasların artırılmasının əhəmiyyətini vurğulayıb.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzulayıb, onun fəaliyyətinin Azərbaycan-Braziliya əlaqələrinin inkişafına töhfə verəcəyinə ümidvarlığını bildirib. Azərbaycana səfir təyin olunmasından və dövlət başçısı ilə görüşdən şərəf hissi duyduğunu deyən Bernard Jorj Leopold de Qarsia Klinql diplomatik əlaqələrimizin yüksək səviyyədə olduğunu qeyd edib.

Səfir Azərbaycanın və Braziliyanın COP sahəsində də uğurlu əməkdaşlıq etdiklərini vurğulayıb. Bernard Jorj Leopold de Qarsia Klinql səfir kimi ikitərəfli münasibətlərimizin genişləndirilməsinə töhfə verəcəyini deyib.

### "KAMBOCA AZƏRBAYCANA DOST ÖLKƏDİR"

Prezident İlham Əliyev iyulun 17-də Kamboca Krallığının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sok Çeanı da qəbul edib. Dövlət başçısı Azərbaycanın Kamboca ilə ikitərəfli münasibətlərə və qarşılıqlı dəstəyə, həmçinin hökumətlər və hakim partiyalar səviyyələrində təmaslara böyük önəm verdiyini deyərək, yalnız siyasi deyil, eyni zamanda, iqtisadiyyat, investisiyalar sahələrində əlaqələrimizi daha yüksək səviyyəyə çatdırmağın önəminə toxunub, Kambocanın dost ölkə olduğunu bildirib.

Qəbula görə dövlət başçısına təşəkkürünü ifadə edən səfir Kambocanın Azərbaycanla dost münasibətlərə yüksək dəyər verdiyini vurğulayıb. O, ölkələrin coğrafi baxımdan bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, Azərbaycan və Kambocanın dayanıqlı inkişaf, beynəlxalq sülh və sabitlik məsələlərində eyni mövqedən çıxış etdiklərini deyib.

Görüşdə Kambocanın Baş nazirin Azərbaycana gözlənilən səfərinin ikitərəfli əlaqələrin daha da inkişafı üçün yaxşı imkan yaradacağına ümidvarlıq ifadə olunub.



## İRLANDİYA BAKI-BRÜSSEL ƏLAQƏLƏRİNİ DƏSTƏKLƏYİR

Prezident İlham Əliyev İrlandiyanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kler Brosnanı qəbul edərkən ölkələr arasında münasibətləri genişləndirməyin əhəmiyyətini qeyd edərək, siyasi sahə ilə yanaşı, investisiyalar və digər potensial istiqamətlər üzrə əməkdaşlığı möhkəmləndirmək üçün imkanlara toxunub.

Kler Brosnan hazırda İrlandiyanın Avropa İttifaqına sədrlik funksiyasını yerinə yetirdiyini deyərək, Azərbaycanla bu qurum arasında əlaqələrin inkişafını dəstəklədiyini bildirib. O, İrlandiyanın "Avropa Siyasi Birliyi"nin növbəti Zirvə Görüşünə ev sahibliyi edəcəyini də deyib.

## OMANLA DİPLOMATİK MÜNASİBƏTLƏRİN 35 İLİ TAMAM OLUR

Prezident İlham Əliyev iyulun 17-də Oman Sultanlığının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Saif Raşid Saif Al Cahvarini də qəbul edib.

Dövlət başçısı dost ölkələr arasında münasibətlərin uğurlu inkişafından məmnunluğunu bildirərək, bir çox sahədə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın həyata keçirildiyini deyib və tərəfdaşlığın möhkəmləndirməsi üçün yaxşı imkanların olduğunu vurğulayıb.

Səfir bu günlərdə diplomatik münasibətlərin 35 illiyinin qeyd olunmasının önəmini vurğulayıb. O, Leyla Əliyevanın bu ilin əvvəlində Omana səfərini xatırladaraq, həmin səfər zamanı keçirilmiş görüşlərin və aparılmış müzakirələrin əhəmiyyətinə toxunub, bütün bunların ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verdiyini deyib.

# ŞUŞADA TƏQDİM OLUNAN UĞUR MODELİ

Bu gün Azərbaycan Çin, ABŞ, Rusiya, Avropa İttifaqı, Afrika ölkələri, həmçinin region dövlətləri ilə çox sıx və qarşılıqlı faydaya, iqtisadi maraqlara əsaslanan uğurlu əməkdaşlıq modeli qurub.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

IV Şuşa Qlobal Media Forumu bir daha bütün dünyaya Azərbaycanın xarici siyasət kursunun nümunəvi bir model olduğunu nümayiş etdirdi. Prezident İlham Əliyevin Forumda səsləndirdiyi fikirlər rəsmi Bakının xarici siyasətdə üstünlük verdiyi prinsipləri bir daha gündəmə gətirdi.

**BÖYÜK SİYASİ ZƏKA, İRADƏ TƏLƏB EDƏN İŞ**

Bu düstur "qonşular və qonşuların qonşuları ilə yaxşı münasibətlər" kimi sadə görünən bir prinsipə əsaslansa da, onun uğurla reallaşdırılması çox böyük diplomatik və siyasi zəka, iradə tələb edir. Bu gün Prezident İlham Əliyev dünya siyasətində bu modeli uğurla reallaşdıran azsaylı liderlərdən biri kimi qəbul edilir. Məhz bu siyasət nəticəsində Azərbaycan hazırda beynəlxalq aləmdə təhlükəsiz və etibarlı logistik mərkəz, tranzit ölkə və tərəfdaş kimi qəbul edilir. Ölkəmiz hazırda bağlantılar sahəsində dünyanın əsas diqqət yetirdiyi strateji məkanlardan biridir.

**UĞURLU ƏMƏKDAŞLIQ MODELİNİN SİRRİ**

Bu uğurun sirrini isə Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda çıxışı zamanı belə izah edib: "Biz kifayət qədər uzun müddət ərzində bağlantılar üzərində işləmişik. Biz bəlkə də 10 ildən artıqdır çalışdıq, coğrafi mövqeyimizin üstünlüklərindən istifadə edərək, onları çoxtərəfli əməkdaşlıq üçün real platformaya çevirək. Müxtəlif meyarlar var idi ki, bizə beynəlxalq daşımalar məkanına çevrilmək imkanını yaradırdı və ya buna mane olurdular. İlk olaraq, bu, çatışmayan fiziki infrastrukturla bağlı idi və biz onu yaratmalı idik və yaratdıq. İkincisi, qonşularla qarşılıqlı əlaqələr olmadan, siz heç zaman tranzit ölkəyə çevrilməyəcəksiniz. Əgər qonşularınızla münasibətləriniz pisdirsə, bu o deməkdir ki, heç nə alınmayacaq. Avrasiyanın böyük coğrafi məkanında, Azərbaycandan Şərq və Qərb, Şimal və Cənub istiqamətlərdə geniş beynəlxalq əməkdaşlığı qurmaq, prosesi apardığımız kimi inkişaf etdirmək, məsələn, Azərbaycanın təşəbbüskar olduğu, əsas maliyyə töhfəsini verən tərəf olduğu və çoxtərəfli əməkdaşlığı təşkil edən tərəf kimi enerji layihələrimizin həyata keçirilməsi həmin meyarlar sırasındadır. Bu isə bu gün, enerji təhlükəsizliyi məsələlərinin həllində, həmçinin bir çox ölkələrə kömək edir.

Beləliklə, eyni yanaşmanı bağlantılara da tətbiq edirik. Söylədiyim kimi, fiziki infrastruktur qurulub. İndi isə biz yalnız onun genişləndirilməsi yolları üzərində çalışırıq, çünki biz gözləmirdik ki, coğrafiyamız son vaxtlar bu qədər lazımlı olacaq. Şərq və Qərbdəki qonşularla - istər Mərkəzi Asiya ölkələri, istərsə də Gürcüstan, Türkiyə və Avropa kimi yaxın qonşularımızla qarşılıqlı fəaliyyət çox yaxşıdır".




## Bakının səyləri nəticəsini verir

Bu gün Azərbaycan uzun illər əvvəl əsası qoyulan bu siyasətin bəhrəsini görür desək, yanılmarıq. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, hazırda Orta Şərqdəki vəziyyət bu dəhlizi daha cəlbedici edir: "Əgər siz mübarizənin qaynar dövründə təkcə uçuşların xəritəsinə nəzər salsanız, görərsiniz ki, Azərbaycandan çox dar dəhliz keçir. Eyni vəziyyəti Xəzər dənizi ilə və quru ərazi ilə daşımalara da aid etmək olar. Bir sözlə, bütün həmin meyarlar Azərbaycanın əhəmiyyətini birmənalı şəkildə artırır. Xoşbəxtlikdən, biz yüklərin artan həcminin daşınmasını təmin etməyə hazır idik. Hazırda biz öz



imkanlarımızı artırırıq. Dəniz ticarət limanımıza gəldikdə, hazırda o, 15 milyon ton imkanı ilə Xəzərdə ən iri limandır və onun həcmi 25 milyon tonu təmin etmək üçün artırılacaq. Hazırda biz Avropaya və geriyə yükləri daşımaq üçün öz gəmiqayırma zavodumuzda 10 gəmini tikirik. Mərkəzi Asiya ölkələri və Avropa Komissiyası ilə sıx münasibətlərimiz hər iki istiqamətin mərkəzində dayanır və bu, həqiqətən böyük üstünlük yaradır. Əlbəttə, Azərbaycanın hər zaman əməkdaşlığa, qonşularımızı narahat edən məsələlərin həllinə yönələn siyasəti narahatlıqlarımızı aradan qaldırmağa və mühit yaratmağa imkan verir. Burada, Şuşada, Media Forumda bəhs etdiyim mühiti bir çox beynəlxalq iştirakçılar arasında yaratmağa çalışırıq və ümid edirəm ki, yaratmağa nail olmuşuq".

## "Mən hər kəsi məsuliyyətli olmağa çağırıram"

Azərbaycanın dünyaya nümunə kimi təqdim etdiyi uğurlu xarici siyasət modelindən bəhrələnən tək Azərbaycan deyil. Bu gün Bakının Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirdiyi siyasət Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir. Şimaldan cənuba, şərqdən Qərbə (Çin-Mərkəzi Asiya-Azərbaycan-Avropa marşrutu) davamlı və etibarlı daşımaların həyata keçirilməsinə imkan yaradır.

Şuşa Qlobal Media Forumunda dövlət başçısına ünvanlanan sualların miqyası, Azərbaycanın ikitərəfli və çoxtərəfli əlaqələri ilə bağlı səsləndirilən fikirlər mövcud mənzərəni bir daha aydın şəkildə təsəvvür etməyə imkan yaradır. Bu gün Azərbaycan Çin, ABŞ, Rusiya, Avropa İttifaqı, Afrika ölkələri, həmçinin region dövlətləri ilə çox sıx və qarşılıqlı faydaya, iqtisadi maraqlara əsaslanan uğurlu əməkdaşlıq modeli qurub. Beynəlxalq aləmin hazırda özünün ən çətin dövrlərdən birini yaşadığı məqamda bu modelin əsas təşəbbüskarı və memarı olan Prezident İlham Əliyevin müharibələrdən əziyyət çəkən qonşularımıza məsləhəti isə belədir: "Mənim qonşularımıza mesajım məsuliyyətli olmaq, mümkün qədər tez dayanmaq, münasibətləri normallaşdırmağa çalışmaq və bu prosesi qlobal münaqişəyə çeviriləcək səviyyəyədək eskalasiya etdirməməkdir. Bu, çox böyük təhlükədir və mən hər kəsi məsuliyyətli olmağa çağırıram".

# DİPLOMATİK HÜDUDLARI AŞAN ƏMƏKDAŞLIQ

Slovakiya Prezidenti Peter Pelleqrininin Azərbaycana budəfəki səfəri də özünün əhatə dairəsi, müzakirə edilən gündəliyin zənginliyi baxımından xüsusilə seçildi. Bu səfər həm Bakı-Bratislava münasibətlərinin gələcək inkişafı, həm də Azərbaycanın beynəlxalq miqyasda artan rolunun göstəricisi olaraq mühüm əhəmiyyətə malikdir.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Slovakiya Prezidenti Peter Pelleqrininin Azərbaycana səfəri tək Bakı ilə Bratislava arasında ikitərəfli münasibətlər baxımından yox, həm də Avropa İttifaqı ilə əməkdaşlıq kontekstində təhlil edilir. Bu səfəri əhəmiyyətli və dəyərli edən digər bir məqam Pelleqrininin Prezident İlham Əliyev tərəfindən öncə yeni diplomatik mərkəz statusu adını daşıyan Şuşada rəsmi olaraq qarşılanması, ikitərəfli müzakirələrin də məhz burada aparılması idi. Qeyd edək ki, xarici dövlət başçılarının Şuşada qəbulu artıq bir ənənə halını almaqdadır.

Xatırladaq ki, Slovakiya Prezidenti səfər çərçivəsində Prezident İlham Əliyevlə bir araya gəlib, tərəflər ikitərəfli əməkdaşlığın mövcud durumu və gələcək perspektivlərini müzakirə ediblər. Daha sonra dövlət başçıları Ağdam rayonunun Baş Qərvənd kəndində görülən işlərlə tanış olub, Milan Rastislav Ştefanik adına 840 şagird yerlik Baş Qərvənd kənd tam orta məktəb binasının təməlini qoyublar.

### QARABAĞDA SLOVAKİYA TƏCRÜBƏSİ

Baş Qərvənd kəndi Bərdə-Ağdam avtomobil yolunun və Bərdə-Ağdam dəmir yolu xəttinin sağ tərəfində, Ağdam şəhərinin mərkəzindən 18 kilometr məsafədə yerləşir. Uzun illər erməni işğalı altında qalan kənd 2020-ci il noyabrın 20-də azad edilib. Baş Qərvənd kəndinin inşasında Slovakiya şirkətləri iştirak edirlər. Kənddə inşa olunacaq məktəb isə Slovakiya tərəfindən Azərbaycana hədiyyə olunur. Ümumi ərazisi 480 hektara yaxın olan kəndin tikintisi 2 mərhələdə aparılacaq. Birinci mərhələ 200 hektardan çox sahəni əhatə edir.

### "SİYASİ TƏMASLARIMIZ MÜNTƏZƏM XARAKTER ALIR"

İki ölkə arasındakı münasibətlərin mövcud durumuna gəldikdə isə, bu sahədə atılan addımlar və planlaşdırılan layihələr barədə Prezidentlər mətbuata birgə bəyanatları zamanı danışıblar.

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Slovakiya-Azərbaycan əlaqələrinin inkişafı uğurla gedir: "Bizim siyasi təmaslarımız müntəzəm xarakter alır".

Dövlət başçısı qeyd edib ki, bu gün Slovakiya-Azərbaycan siyasi əlaqələri çox yüksək səviyyədədir və qarşılıqlı səfərlər bunu əyani şəkildə göstərir: "2024-cü ildə biz strateji tərəfdaşlığa dair Birgə Bəyannamə imzalamışıq və bəyannamənin icrası göz önündədir. Çünki belə fəal siyasi təmaslar və birgə layihələrin icra olunması, əlbəttə ki, güclü siyasi iradə tələb edir. Biz çox şadıq ki, Slovakiya Qarabağın bərpasında fəal iştirak edir".

### ƏLA MÜNASİBƏTLƏRİ ƏYANİ ƏMƏKDAŞLIĞA ÇEVİRƏN DOSTLAR

Slovakiya Prezidenti Peter Pelleqrini isə vurğulayıb ki, iki ölkə arasında strateji tərəfdaşlıq sadə formal bəyannamə deyil: "Ölkələrimiz arasında münasibətlər standart diplomatik əlaqələrin hüdudlarını keçir. Biz, həqiqətən, dost ölkələrik. Biz bir-birimizə xeyli kömək edən və əla münasibətlərimizi konkret layihələrə, əyani əməkdaşlığa çevirən dostlarıq". Onun sözlərinə görə, Slovakiya praqmatik münasibətlər qurur, dünyanın istənilən yerində özünə tərəfdaş və dost axtarır: "Çox məmnunam ki, Azərbaycan onların sırasındadır. Azərbaycan mühüm regional iştirakçıdır. O, sabitliyin və inkişafın qarantıdır, Şərqlə Qərbi birləşdirən logistika və nəqliyyat marşrutlarının əsas qovşağı rolunu oynayır. Azərbaycan bu baxımdan mühüm əhəmiyyətə malikdir. Cənab Prezident, mən, həmçinin enerji böhranı zamanı Azərbaycanın operativ cavabına görə Sizə və Azərbaycana təşəkkürümü bildirmək istərdim".

## İkitərəfli əlaqələrdə dönüş nöqtəsi

Xatırladaq ki, Slovakiya Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 24-də tanıyıb, iki ölkə arasında diplomatik münasibətlər isə 1993-cü il noyabrın 23-də qurulub. İkitərəfli münasibətlərinin inkişafında mühüm dönüş nöqtəsi 2024-cü il mayın 6-da Slovakiyanın Baş naziri Robert Fitsonun Azərbaycana rəsmi səfəri zamanı Prezident İlham Əliyev ilə Azərbaycanla Slovakiya arasında Strateji Tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamənin imzalanmasıdır. Məhz bu sənədin imzalanmasından sonra Bakı-Bratislava münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

## İqtisadi əməkdaşlıq imkanları



Təbii ki, ikitərəfli əlaqələrin dərinləşməsində qarşılıqlı iqtisadi münasibətlər mühüm əhəmiyyətə malikdir. Bu günədək iki ölkə arasında müxtəlif sahələri əhatə edən 19 sənəd imzalanıb. Xüsusilə 2021-ci ildə imzalanan iqtisadi əməkdaşlıq haqqında hökumətlərarası saziş və onun əsasında yaradılan Birgə İşçi Qrupu sənaye, kənd təsərrüfatı, logistika, innovasiya və investisiya istiqamətlərində yeni layihələrin həyata keçirilməsi üçün institusional mexanizm formalaşdırıb. Enerji sahəsində əməkdaşlıq isə strateji əhəmiyyət daşıyır. 2024-cü il dekabrın 1-dən ilk dəfə Azərbaycan qazının Slovakiyaya ixracına başlanılıb.

### MÜDAFİƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

Slovakiya həm də Azərbaycanın müdafiə qabiliyyətinin artırılmasında mühüm rol alan ölkələr sırasındadır. Bu sahədə əməkdaşlığın hüquqi bazası 2024-cü ilin mayında "Hərbi-texniki əməkdaşlıq haqqında Memorandum" və "Müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in imzalanması ilə yaradılıb. 2025-ci ildə isə Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi ilə Slovakiyanın Müdafiə Nazirliyi arasında əməkdaşlıq haqqında Niyyət Protokolu imzalanıb. Bundan əlavə, "World Defense Show" beynəlxalq müdafiə sərgisi çərçivəsində əldə olunmuş razılaşmaya əsasən, Slovakiyanın "ZTS Special" şirkəti tərəfindən istehsal olunan SAM-120 avtomatik minaatan sistemlərinin Azərbaycana tədarükü nəzərdə tutulur.

Beləliklə, Slovakiya Prezidenti Peter Pelleqrininin Azərbaycana budəfəki səfəri də özünün əhatə dairəsi, müzakirə edilən gündəliyin zənginliyi baxımından xüsusilə seçildi. Bu səfər həm Bakı-Bratislava münasibətlərinin gələcək inkişafı, həm də Azərbaycanın beynəlxalq miqyasda artan rolunun göstəricisi olaraq mühüm əhəmiyyətə malikdir.

# PEKİN 2027-Cİ İLƏ HAZIRLAŞIR

Çində maraqlı proseslər gözlənilir. 2027-ci ildə keçiriləcək növbəti XXI partiya qurultayında ölkənin hazırkı başçısı dördüncü müddətə yenidən seçiləcək. Lakin başqa variantlar da istisna edilmir.





AZƏR NURİYEV

Si Cinpinin Çin Kommunist Partiyasının baş katibi postunda üçüncü beşillik səlahiyyət müddətinin son ilidir. Hazırda hər şey elə görünür ki, 2027-ci ildə keçiriləcək növbəti XXI partiya qurultayında ölkənin hazırkı başçısı dördüncü müddətə yenidən seçiləcək. Lakin başqa variantlar da istisna edilmir. Qərb mətbuatında mümkün varis kimi daha çox Tsay Tsi barədə yazırlar. Hazırda bu şəxs Si Cinpinə ən yaxın olan şəxsdir. Amma onun varis kimi hazırlandığına dair heç bir açıq əlamət yoxdur.

### 15 İL ƏRZİNDƏ SABİTLİK ŞƏRAİTİNDƏ YAŞAYIRLAR

Si Cinpinin hakimiyyətə gəlməsindən ötən 15 il ərzində Çin sarsıntısız yaşayır. Ölkənin iqtisadiyyatı əvvəlki kimi sürətlə olmasa da, böyüyür. Gənclər arasında işsizlik səviyyəsi yüksəkdir, lakin heç kim küçələrə çıxmır, iğtişaş yaratmır. Xarici cəbhədə də sakitlikdir. Çin gəmiləri və təyyarələri Tayvan yaxınlığında hərbi manevrlər keçirir, lakin toqquşmalar yoxdur. Üstəlik, Pekin Vaşinqtonu Tayvana növbəti silah partiyasının satışını təxirə salmaq üçün yola gətirə bilib.

### Sİ DİLEMMA QARŞISINDADIR

"The New York Times"ın yazdığına görə, hazırda Si dilemma qarşısındadır – hakim elitanı təzə qanla necə yeniləsin ki, bu, öz statusuna xələl gətirməsin. Qəzet Tsay Tsi barədə yazır ki, bu şəxs Çinin ali məmurlarının standartlarına görə o qədər də yaşlı deyil. Onun 70 yaşı var və bunun son iki onilliyi ərzində o, Si Cinpinin yaxın silahdaşı olub. Hazırda Tsay Tsi Siyasi Büronun Daimi Komitəsinin üzvü, Çin Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibidir. Bundan əlavə, o, Mərkəzi Partiya Məktəbinə də rəhbərlik edir. Bu isə o deməkdir ki, yüksək səviyyəli partiya kadrlarının hazırlanması da onun əlindədir. Potensial olaraq, bu, ona böyük aparat imkanları açır.

### HƏR ŞEYİ PARTİYA HƏLL EDİR

Çin sədri artıq üç müddətdir hakimiyyətdədir və indi söhbət səlahiyyətlərin dördüncü dəfə uzadılmasından gedir. Formal olaraq, məsələni 2027-ci ilin payızına planlaşdırılan Kommunist Partiyasının növbəti qurultayı həll etməlidir. Lakin reallıqda qərar Çin Kommunist Partiyasının Mərkəzi Komitəsinin aparatı tərəfindən hazırlanacaq və Mərkəzi Komitənin Siyasi Bürosunun müzakirəsinə təqdim ediləcək.

2018-ci ildə Çin Konstitusiyasına dəyişiklik edilib. Çin sədri üçün əvvəllər mövcud olan iki beşillik müddət məhdudiyyəti ləğv edilib. Bu, Si Cinpinin 10 ildən çox dövlət başçısı qalması üçün formal maneəni aradan qaldırdı. Lakin əsas post Çin sədri deyil, Çin Kommunist Partiyasının baş katibi və Mərkəzi Hərbi Şuranın sədridir - ordunun və partiyanın rəhbəri. Liderin öz postunda qalacağını və ya ona əvəzləyici lazım olub-olmadığını qanunvericilər və ya ali dövlət məmurları həll etmir. Hər şeyi partiya həll edir. Əlbəttə, onun sıravi üzvləri deyil, partiya aparatının ali orqanlarında işləyən, Mərkəzi Komitənin və Siyasi Büronun tərkibinə daxil olan məsul şəxslər.




### MAO TSZEDUNUN VƏFATINA QƏDƏR

Ekspert Vasili Kaşin məsələyə fərqli yanaşır: "Gəlin, Çinin tarixindən başlayaq. Mao Tszedun 1976-cı ildəki vəfatına qədər partiya və dövlət üzərində nəzarəti saxlamışdı. Bir müddət nəzarəti Maonun təyin etdiyi xələf Xua Qofen saxladı. Lakin o, hakimiyyəti tezliklə itirdi və ömrünün qalan hissəsini ikinci dərəcəli, mərasim xarakterli vəzifələrdə keçirdi. Düzdür, o, Mərkəzi Komitənin üzvü olaraq qaldı, lakin real hakimiyyət Den Syaopinə keçdi. Den partiya və dövlət postlarında əsas fiqurların yerini dəyişə bilirdi. Bu, partiya rəhbərliyində böhranlara səbəb olurdu. Bunun nəticəsi 1989-cu ildə Pekində Tyananmen meydanındakı kütləvi etirazlar oldu".

### "BİZ HAZIRLANMIŞ HƏR HANSI BİR XƏLƏF FİQURU GÖRMÜRÜK"

Bundan sonra rəhbərlərin beş ildən ibarət iki müddətə postda qala biləcəyi və daha sonra yeni nəslə yol verəcəyi bir sistem bərqərar oldu. Ehtimal olunurdu ki, baş katib və hökumət başçısı onların idarəçiliyinin ilk beşilliyindən sonra dəyişdiriləcək. Bu sistem 20 il, iki rəhbərin – Tszyan Tszemin və Xu Szintao dövründə mövcud oldu. Xu Szintaodan sonra hər şeyi dəyişdirən Si Cinpin gəldi. Doğrudur, Tszyan Tszemin hakimiyyətlə dərhal vidalaşmadı. Hətta baş katib olmağı dayandırdıqdan sonra da öz adamlarını mühüm vəzifələrə irəli çəkirdi. Lakin nəticədə sistem sıradan çıxmağa başladı.

"Bizdə Si Cinpinin hakimiyyətin növbəti nəslə ötürülməsini necə gördüyü barədə səhih məlumat yoxdur. Yəqin ki, çox şey Çinin bu və ya digər şəkildə iştirak etdiyi regionlardakı böyük siyasi hadisələrdən və hazırkı Çin sədrinin səhhətindən asılı olacaq. Xarici şərhçilər düzgün müşahidə ediblər ki, indi onun ətrafında məmur və siyasi xadim Tsay Tsi böyük rol oynamağa başlayıb. O, hazırda Sinin sağ əlidir. Həqiqətən də ən həssas, məsuliyyətli tapşırıqlar onun üzərinə qoyulur. Eyni zamanda, Tsay Tsi formal olaraq Si Cinpindən sonra ikinci şəxs deyil. Siyasi Büronun Daimi Komitəsində onun mövqeyi 5 nömrəlidir. Yekun olaraq əminliklə deyə bilərik ki, Si Cinpinin səlahiyyətlərinin yeni müddətə uzadılması baş tutacaq, çünki biz hazırlanmış hər hansı bir xələf fiquru görmürük", – Kaşin qeyd edib.

Göründüyü kimi, Çində maraqlı proseslər gözlənilir. Lakin hakimiyyətə kimin gələcəyindən asılı olmayaraq kurs dəyişməyəcək. Ölkə fövqəldövlət statusunu gücləndirməkdə davam edəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# ŞUŞA QLOBAL MEDİA FORUMU DÜNYA MƏTBUATINDA

"Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumu beynəlxalq medianın böyük marağına səbəb olub. Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər dünyanın aparıcı media orqanları tərəfindən geniş şəkildə işıqlandırılıb.

FUAD ABASOĞLU

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa növbəti dəfə dünya mediasının diqqət mərkəzinə düşdü. Prezident İlham Əliyevin iştirakı ilə 4-cü dəfə təşkil olunan IV Şuşa Qlobal Media Forumu beynəlxalq aləmdə böyük maraq oyatdı. Azərbaycan Prezidentinin istər regional, istərsə də qlobal problemlərlə bağlı səsləndirdiyi fikirlər dünyanın aparıcı media orqanları tərəfindən geniş şəkildə işıqlandırıldı. Qeyd edək ki, iki gün davam edən Şuşa Qlobal Media Forumunda dünyanın 53 ölkəsini təmsil edən 160-a yaxın jurnalist və media nümayəndəsi iştirak edib.

### "BİZ YALNIZ QARDAŞ VƏ DOST DEYİLİK, HƏM DƏ MÜTTƏFİQİK"

Türkiyənin Anadolu Agentliyi Şuşa Forumuna dair yaydığı xəbərdə Prezident İlham Əliyevin Türkiyə-Azərbaycan münasibətləri ilə bağlı mühüm fikirlərinə geniş yer ayırıb. Agentlik dövlət başçısının Türkiyə və Azərbaycanın dünyada bir-birinə ən yaxın iki ölkə olduğuna dair fikirlərini qeyd edib. Bildirilib ki, Prezident İlham Əliyev Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin regional sabitlik və əməkdaşlıq baxımından da mühüm element olduğunu söyləyib. Agentlik Prezident İlham Əliyevin bu sözlərini sitat gətirir: "Bu, həm də təhlükəsizlik baxımından vacib amildir. Çünki burada, beş il əvvəl Şuşada Türkiyə Prezidenti ilə birlikdə Şuşa Bəyannaməsini imzaladıq. Bu sənəd münasibətlərimizi faktiki olaraq müttəfiqlik səviyyəsinə qaldırdı. Buna görə də biz yalnız qardaş və dost deyilik, həm də müttəfiqik. Birimizin başına bədbəxt bir şey gələrsə, digərimiz onu müdafiə etmək üçün hərbi potensialı da daxil olmaqla, əlindəki bütün vasitələrlə qardaşının yanında olacaq".

Anadolu Agentliyi ilə yanaşı, Türkiyənin "TRT Avaz", "Milliyet", "Saray Medya", "Haber365", "Akşam", "Hürriyet", "Haber1", "Yeni Akit", "İhlas Haber Ajansı", "Manşet Haber", "Birlik" və "Haber Global" kimi digər aparıcı xəbər saytları və media platformaları da Şuşa Qlobal Media Forumunu və Prezident İlham Əliyevin çıxışını diqqət mərkəzində saxlayaraq geniş materiallar yayımlayıblar.



## Bakı-Moskva münasibətlərinin mövcud durumu

Rusiya mətbuatı da Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışını geniş şəkildə işıqlandırıb. Dövlət başçısının bəyanatları Rusiyanın aparıcı xəbər agentlikləri və nəşrlərində, o cümlədən TASS, "İzvestiya", "Kommersant", "Rossiyskaya qazeta", "Vedomosti", "Arqumentı i faktı", "Vzqlyad", "Moskovski komsomolets" və digər qəzetlərdə günün əsas beynəlxalq mövzularından birinə çevrilib. Rusiya mediası Azərbaycan Prezidentinin Bakı ilə Moskva arasında münasibətlərin tam normallaşdığı və müsbət istiqamətdə inkişaf etdiyi barədə bəyanatına xüsusi diqqət yetirib. Prezident İlham Əliyevin "3+3" regional əməkdaşlıq formatı ilə bağlı bəyanatlarına da Rusiya mətbuatında geniş yer verilib. Media qurumları Azərbaycan liderinin bu mexanizmin bütün Cənubi Qafqaz məsələlərini əhatə etməli və regional əməkdaşlığın təməlini təşkil etməli olduğu barədəki mövqeyinə diqqət çəkib. Rusiya nəşrləri Azərbaycan dövlət başçısının Avropa Şurası ilə münasibətlərə dair açıqlamalarına geniş istinad edib.

### RUSİYA-UKRAYNA MÜHARİBƏSİNƏ DAİR FİKİRLƏR

Ukraynanın dövlət informasiya agentliyi olan "Ukrinform"da, "Gordon", "Tsenzor", "Korrespondent", "24tv.ua", "Apastrof" və digər xəbər portallarında da dövlətimizin başçısının jurnalistlərin suallarını cavablandırarkən söylədiyi fikirlərə dair xəbərlər dərc edilib. Həmin xəbərlərdə Prezident İlham Əliyevə istinadla qeyd olunur ki, Rusiya və Ukrayna arasında müharibə zamanı Avropa İttifaqına Azərbaycan təbii qazının tədarükü 65 faiz artıb və Azərbaycan hasilatı daha da artırmağa hazırdır. Hazırda mövcud nəqliyyat infrastrukturunun genişləndirilməsi zəruridir. Hasilatın əhəmiyyətli dərəcədə artırılması böyük investisiya tələb edir. Azərbaycan da enerji ixracatını şaxələndirmək üçün çalışır və artıq Suriyaya qaz tədarükünə başlayıb və Suriya vasitəsilə Yaxın Şərq bazarlarına çıxış imkanlarını nəzərdən keçirir.

Ukrayna mediasında Prezident İlham Əliyevin Rusiya-Ukrayna müharibəsinə aid fikirlərinə dair xəbərlər də dərc edilib.

## Regional məsələlərlə bağlı bəyanatlara geniş yer ayrılıb

İranın "İSNA", "Fararu", "Mardom Salari", "Akharin Khabar" və "Vista" kimi tanınmış media qurumları da Azərbaycan Prezidenti İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışını və regional məsələlərlə bağlı bəyanatlarını geniş işıqlandırıb. Gürcüstanın "İnterpressnews", "Ambebi", "Newshub Georgia", "1tv.ge", "imedinews.ge", "news.ge", "resonancedaily.com", "for.ge", "mcm.ge", "aktual.ge","interpress.ge", "qafqazturk.com", "24news.ge" kimi mətbuat orqanlarında dərc olunan materiallarda Prezident İlham Əliyevin Azərbaycanın Avropa Şurası və Avropa İttifaqı ilə münasibətləri barədə fikirlərinə yer ayrılıb. Qeyd edilib ki, Prezident İlham Əliyev Azərbaycanın qarşıdurma axtarmadığını və normal münasibətlərə üstünlük verdiyini bildirib.

### "FORUM ÇƏRÇİVƏSİNDƏ FORMALAŞAN MÜSBƏT MÜHİT"

İordaniyanın aparıcı kütləvi informasiya vasitələri – "Petra", "Ammun" və "Nayrouz" xəbər agentlikləri, "Əl-Məmləkə" televiziya kanalı, eləcə də "Əl-Dustur" və "Jordan Daily" nəşrləri Şuşada keçirilən Qlobal Media Forumu və Azərbaycan Prezidenti İlham Əliyevin tədbirdəki çıxışı barədə materiallar yayımlayıblar. Yazılarda Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunun əhəmiyyəti, Azərbaycanın bir sıra məsələlər üzrə siyasi mövqeyi və İslam ölkələri ilə münasibətləri barədə fikirlərinə geniş yer verilib.



Qeyd olunub ki, forum çərçivəsində formalaşan müsbət mühit beynəlxalq iştirakçılar arasında əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edir. İordaniya mediası Azərbaycanın beynəlxalq əlaqələri və xarici siyasət prioritetləri ilə bağlı Prezident İlham Əliyevin fikirlərini də diqqətə çatdırıb.

# ÜDM DƏ ARTDI, GÖZLƏNTİLƏR DƏ...

İlin ilk altı ayında qeydə alınan 0,8 faizlik iqtisadi artım Azərbaycanın dayanıqlı inkişafını davam etdirdiyini göstərir. Ekspertlər bu dinamikanın ilin sonuna qədər bir az da sürətlənəcəyini düşünürlər. Hökumətin də iqtisadi inkişafla bağlı proqnozları müsbət istiqamətdədir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanın 2026-cı ilin ilk yarısı üzrə makroiqtisadi göstəriciləri açıqlanıb. Hesabat dövründə investisiyalar, qeyri-neft sənayesi, kənd təsərrüfatı, nəqliyyat və informasiya-rabitə sahələrində artım, strateji valyuta ehtiyatlarında və əhalinin gəlirlərində yüksəliş, xarici dövlət borcunda isə azalma qeydə alınıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-iyun aylarında ölkədə 65 milyard 207 milyon manatlıq Ümumi Daxili Məhsul (ÜDM) istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz çoxdur. Bəs bu artım necə qiymətləndirilməlidir? Artımın əsas mənbələri nələrdir və ilin ikinci yarısında dinamikanın sürətlənməsi mümkündürmü?

### "FİSKAL İNTİZAM MEXANİZMLƏRİNİN NƏTİCƏSİDİR"

Millət vəkili, iqtisad elmləri doktoru Rövşən Muradovun sözlərinə görə, 2026-cı ilin ilk yarısı üzrə açıqlanan makroiqtisadi göstəricilər Azərbaycanın qlobal iqtisadi qeyri-müəyyənlik şəraitində belə, dayanıqlı inkişaf trayektoriyasını qoruduğunu sübut edir: "Dünya iqtisadiyyatında artım tempinin zəiflədiyi, enerji bazarlarında qiymət dəyişkənliyinin davam etdiyi və geosiyasi risklərin beynəlxalq ticarətə mənfi təsir göstərdiyi bir dövrdə ölkəmizdə ÜDM-in müsbət dinamika nümayiş etdirməsi həyata keçirilən makroiqtisadi siyasətin və fiskal intizam mexanizmlərinin səmərəliliyindən xəbər verir. Bu göstəricinin arxasında, əslində, iqtisadiyyatın struktur transformasiyası dayanır. Qeyri-neft sənayesində, kənd təsərrüfatında, nəqliyyat-logistika və informasiya-kommunikasiya texnologiyaları sahələrində qeydə alınan nəticə onu göstərir ki, iqtisadi artımın mənbələri tədricən daha geniş və şaxələndirilmiş əsaslar üzərində formalaşır. Makroiqtisadi göstəricilərin kompleks təhlili onu deməyə əsas verir ki, ölkədə maliyyə dayanıqlığını təmin edən fundamental indikatorlar müsbət dinamikaya malikdir. Strateji valyuta ehtiyatlarının artması, xarici dövlət borcunun azalması, əsas kapitala yönəldilən investisiyaların və əhalinin gəlirlərinin yüksəlməsi iqtisadi təhlükəsizlik baxımından etibarlı maliyyə bazasının formalaşdığını təsdiqləyir".

### "NÖVBƏTİ MƏRHƏLƏ ÜÇÜN GÜCLÜ POTENSİALIMIZ VAR"

R.Muradov bildirdi ki, açıqlanan 0,8 faizlik artım ilin yekun iqtisadi artım tempini tam ifadə etmir. İlin ikinci yarısında investisiya layihələrinin iqtisadi dövriyyəyə daha intensiv qoşulması, qeyri-neft sektorunda istehsalın genişlənməsi və daxili iqtisadi fəallığın artması ümumi böyüməyə əlavə töhfə verəcək: "Bu baxımdan, hökumətin ilin sonuna hədəflədiyi 2 faizdən yuxarı iqtisadi artım proqnozu mövcud makroiqtisadi dinamika ilə tam uzlaşır. Düzdür, beynəlxalq praktikada inkişaf etməkdə olan ölkələr üçün 2 faiz ətrafında artım çox yüksək dinamika hesab olunmaya bilər. Lakin qlobal qeyri-müəyyənliklər, enerji bazarlarındakı dəyişkənlik və neft hasilatına təsir edən obyektiv amillər fonunda bu nəticənin əldə olunması makroiqtisadi sabitliyin qorunmasının və aparılan iqtisadi siyasətin dayanıqlılığının göstəricisi kimi qiymətləndirilməlidir. İqtisadi inkişafın növbəti mərhələsi üçün də kifayət qədər güclü potensial mövcuddur".




## "TİKİNTİ VƏ XİDMƏT SEKTORU ARTIMIN ƏSAS MƏNBƏLƏRİ OLUB"

İqtisadçı Rəşad Həsənov isə düşünür ki, qeydə alınan 0,8 faizlik artımı pozitiv dinamika və müsbət meyl kimi dəyərləndirmək olar. Lakin nəzərə almalıyıq ki, Azərbaycan inkişaf etməkdə olan, xammala əsaslanan iqtisadiyyata malikdir. Belə bir şəraitdə ölkədəki iqtisadi artım tempinin qlobal göstəricilərdən aşağı olması ciddi narahatlıq doğurur: "Hazırda müxtəlif istiqamətlərdə, xüsusilə dövlət nəzarətindəki xüsusi iqtisadi zonalarda böyükhəcmli investisiyalar həyata keçirilir. 0,8 faizlik artımı şərtləndirən başlıca təsiredici faktor əsas kapitala qoyuluşlar, daha dəqiqi, tikinti sektorudur. Xatırladaq ki, beş aylıq nəticələrə görə, tikinti sektorunda 19 faizlik kiçilmə müşahidə olunurdu və bu, iqtisadi durğunluğu yaradan əsas amillərdən biri kimi çıxış edirdi. Hazırda isə əsas kapitala investisiya qoyuluşlarında ciddi artımın şahidi oluruq. Belə ki, beş aylıq nəticələrə görə bu göstərici -2,1 faiz (azalma) idisə, altı aylıq yekunlarda birdən-birə 13,8 faizlik artım qeydə alınıb. Bu, kifayət qədər əhəmiyyətli rəqəmdir və məhz bu sahədən qaynaqlanan yeni bir böyümə bazasının formalaşdığını söyləmək mümkündür. Artımı dəstəkləyən ikinci istiqamət isə xidmət sektorudur. Çox güman ki, istirahət, əyləncə və turistlərin yerləşdirilməsi kimi sahələrdə mövsümlə əlaqədar olaraq müsbət konyunktur formalaşıb. Məhz bu tendensiya yekunda kiçik həcmdə olsa belə, ümumi iqtisadi artımın ortaya çıxmasını şərtləndirən növbəti həlledici amilə çevrilib".

### "İQTİSADİ SİYASƏT YENİDƏN DİZAYN EDİLMƏLİDİR"

İqtisadçının fikrincə, qısamüddətli dövrdə iqtisadiyyatda ciddi nəticələrin əldə edilməsi yalnız "dopinq" effekti yaradan addımlarla mümkündür. Buraya büdcə xərcləmələrinin və əsas kapitala qoyuluşların artırılması kimi qısamüddətli həllər, eləcə də turizm sektorunda kəskin sıçrayış yarada biləcək radikal qərarlar daxildir: "Lakin ilin qalan aylarında da iqtisadiyyatın böyüməsinə əsas təsir yenə də tikinti sektoru və dövlət investisiyalarından gələcək. Orta və uzunmüddətli dövr üçün isə iqtisadi siyasət yenidən dizayn edilməli və mövcud konservativ yanaşmadan imtina olunmalıdır. Vergi yükünün azaldılması, təşviqlərin artırılması, bazara daxilolma və çıxma maneələrinin aradan qaldırılması, eləcə də inhisarçılığın zəifləntilməsi istiqamətində tədbirlər mütləq genişləndirilməlidir".



# ƏMLAK QİYMƏTLƏRİNDƏ NİSBİ SABİTLİK



Əmlak qiymətlərində əvvəllər müşahidə olunan sürətli artım tempi zəifləyib. İlk baxışda sektorda sabitlik yarandığı görünsə də, ekspertlər fərqli düşünürlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycan Qiymətləndiricilər Palatası (AQP) 2026-cı ilin aprel ayı üzrə daşınmaz əmlak indekslərini açıqlayıb. Palatanın məlumatına görə, 2026-cı ilin aprel ayında paytaxtın daşınmaz əmlak bazarının indeksi 101.8 səviyyəsinə yüksəlib və bu, 2025-ci ilin dekabr ayı ilə müqayisədə 1.8 faiz artımın qeydə alındığını göstərir. Müşahidə olunan dinamika bazarın sürətli qiymət artımı mərhələsindən çıxaraq daha sabit, selektiv və fundamental göstəricilərə əsaslanan balanslı inkişaf fazasına keçdiyini təsdiqləyir. Bəs, ilin sonuna qədər mənzil bazarında qiymət sabitliyi davam edə bilərmi? Qiymətlərin sabitləşməsi əmlak bazarına necə təsir göstərəcək?

### "ARTIM TEMPİ ƏVVƏLKİ PİK DÖVRLƏ MÜQAYİSƏDƏ NİSBƏTƏN ZƏİFLƏYİB"

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc deyir ki, daşınmaz əmlak bazarı indekslərlə tənzimlənmir. Bazara təsir edən əsas amillər investor davranışı və makroiqtisadi göstəricilərdir: "Ona görə də hazırkı vəziyyəti tam sabitləşmə kimi təqdim etmək doğru deyil. Hazırda qiymət artımı xüsusilə iri infrastruktur layihələrinin icra olunduğu ərazilərdə müşahidə olunur. Köhnə və qəzalı binaların sökülməsi, yeni yaşayış komplekslərinin tikilməsi, abadlıq işləri, park və sosial infrastrukturun yaradılması həmin zonalarda qiymətləri ciddi şəkildə artırır. Məsələn, köhnə bina sökülərək yerində yeni bina inşa olunursa, həmin ərazidə mənzil qiymətləri avtomatik olaraq 40-50 faizə qədər yüksəlir. Çünki investor bazara əvvəlki qiymətlə deyil, kvadratmetri 3700-3800 manat civarında olan yeni məhsul çıxarır. Belə layihələr davam etdiyi halda bazarda tam sabitlikdən danışmaq çətindir. Hazırda sadəcə artım tempi əvvəlki pik dövrlə müqayisədə nisbətən zəifləyib. Amma qiymətlər yenə artır. Ötən ilin dekabrı ilə müqayisədə bəzi ərazilərdə artım 5-5.5 faizə çatıb".



Vüqar Oruc

Elnur Azadov

## Sement, armatur, logistika xərcləri, inflyasiya...

Mütəxəssis bildirir ki, daşınmaz əmlak bazarında əsas amillərdən biri torpaq faktorudur. Yeni tikililərin sayı artdıqca şəhərdə boş torpaq ehtiyatı azalır və bu da qiymətlərə birbaşa təzyiq göstərir: "Xüsusilə mərkəzə yaxın ərazilərdə torpaq qiymətləri çox sürətlə artır. Bəzi hallarda torpaq bazarında illik artımın 20 faizə çatacağı gözlənilir. Yeni infrastruktur layihələri, tramvay xətlərinin çəkilməsi, yaşayış komplekslərinin inşası aparılan ərazilərdə bu artım daha kəskin hiss olunur. Məsələn, Ziya Bünyadov və Heydər Əliyev prospektləri istiqamətində yerləşən zonalarda torpaq qiymətləri çox sürətlə bahalaşır. Digər tərəfdən, tikintinin maya dəyəri də artır. Sement, armatur, logistika xərcləri, inflyasiya və əməkhaqlarındakı yüksəliş tikinti sektoruna ciddi təsir göstərir. Şəhərsalma və ekoloji tələblərin sərtləşməsi, yaşıl iqtisadiyyat və dayanıqlılıq prinsiplərinin tətbiqi də əlavə xərclər yaradır. Bütün bunlar satış qiymətlərinə təsir edir. Urbanizasiya prosesi də davam edir. Regionlardan paytaxta axın olduqca mənzilə tələb artır. Bütün bu makroiqtisadi faktorlar fonunda bazarda tam sabitləşmədən və ya qiymətlərin sabitləşməsindən danışmaq real görünmür".

## "Bazarda əsas dəyişiklik artımın xarakterindədir"

V.Oruc bildirir ki, 2023-2024-cü illərdə müşahidə olunan pik artım tempi bu il olmayacaq: "2025-ci ildən başlayaraq qiymət artımında müəyyən zəifləmə müşahidə olunur və 2026-cı ildə də bu tendensiya davam edə bilər. Amma bu, bazarın sabitləşməsi demək deyil: "Beynəlxalq fondlar və təşkilatlar ilin əvvəlində açıqladıqları proqnozlarda köhnə mənzil fondunun birrəqəmli, yeni tikili seqmentinin isə ikirəqəmli artım göstərə biləcəyini qeyd ediblər. Hazırda bazarda əsas dəyişiklik artımın xarakterindədir. Artım artıq bütün şəhər üzrə eyni templə deyil, daha çox selektiv şəkildə baş verir. Məsələn, böyük urbanizasiya və abadlıq layihələrinin həyata keçirildiyi zonalarda daşınmaz əmlakın dəyəri ciddi şəkildə artır. Premium seqmentdə tikinti xərclərinin yüksək olması səbəbindən qiymət artımı daha sürətlidir. Orta seqmentdə isə artım əsasən ipoteka tələbi hesabına formalaşır və burada illik 7-10 faiz civarında yüksəliş mümkündür".

## "Qiymətlərin sabitləşməsi anlayışına ümumi yanaşmaq doğru deyil"

Daşınmaz əmlak bazarı üzrə ekspert Elnur Azadov deyir ki, sektorda qiymətlərin sabitləşməsi anlayışına ümumi yanaşmaq doğru deyil. Çünki bazar çox geniş seqmentləri əhatə edir: "Buraya mənzillər, fərdi evlər, ticarət obyektləri, müxtəlif təyinatlı torpaq sahələri, istehsalat və ofis sahələri, eləcə də hotellər, klinikalar və iri çoxfunksiyalı əmlak kompleksləri daxildir. Bundan əlavə, regionlar və lokasiyalar üzrə bazar davranışı da fərqlənir. Ona görə də bütün daşınmaz əmlak bazarı üzrə vahid "sabitləşmə"dən danışmaq düzgün yanaşma hesab oluna bilməz".

Ekspert bildirir ki, pandemiyadan sonra bütün dünyada olduğu kimi, Azərbaycanda da daşınmaz əmlak bazarında kəskin bahalaşma başladı: "Pandemiya dövründə gözləmə mövqeyində qalan alıcıların bazara qayıtması qısa müddətdə ciddi tələb yaratdı və bu da qiymət artımını sürətləndirdi. Azərbaycanda qiymətlərə əlavə təsir göstərən əsas amillərdən biri işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı tikinti və bərpa işlərinin başlaması oldu. Bunun fonunda bəzi strateji tikinti materiallarının qiyməti kəskin yüksəldi. Məsələn, bir ton armaturun qiyməti 780 manatdan 1200-1250 manata qədər artdı. Sement və beton məhsullarında da 15-25 faiz bahalaşma müşahidə olundu. 2021-2022-ci illərdə digər tikinti materiallarında da ciddi qiymət artımı qeydə alındı. Rusiya-Ukrayna müharibəsinin yaratdığı iqtisadi təsirlər region ölkələrində, o cümlədən Azərbaycanda tikinti xərclərini daha da artırdı. Nəticədə tikinti şirkətləri artan maya dəyəri ilə üzləşdi və bu xərclər birbaşa satış qiymətlərinə transfer olundu".

# QIZI İLƏ EYNİ İLDƏ MƏZUN OLAN ANA

Ali təhsil almaq arzusuna 20 il sonra çatan Aygün Qasımova: "Nərmin 10-cu sinifdə oxumağa başlayanda "mən də səninlə birlikdə hazırlaşım" dedim. Buna daxilən hazır olduğumu hiss etdim".



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



Ötən həftə ana ilə qızının eyni ildə ali məktəbdən məzun olması xəbəri medianın maraq doğuran xəbərinə çevrildi. Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) məzunu Aygün Qasımova və Bakı Dövlət Universitetinin (BDU) hüquq fakültəsini bitirən qızı Nərmin Qasımovanın məzun fotoları sosial platformalarda da böyük maraqla qarşılandı. Redaksiyamızda qonaq olan məzunlar bu hekayəni özləri danışdılar.

**"AMMA ÜRƏYİMDƏ OXUMAQ ARZUSU QALMIŞDI"**

A. Qasımovanın həyatı həqiqətən ürəyində oxumaq arzusu olan, amma müxtəlif səbəblərdən bunu reallaşdıra bilməyən xanımlar üçün əsl örnəkdir. O, bu arzusuna nə az-nə çox, düz 20 ildən sonra çatıb: "Sabirabadda müəllim ailəsində doğulmuşam. İbtidai sinif müəllimim anam olub. Uşaq vaxtı ona "müəllim ana" deyirdim. Atam riyaziyyatçı olduğundan mənim də riyaziyyatçı olmağımı istəyirdi. Orta məktəbi bitirəndən sonra sənədlərimi ali məktəbə versəm də, az bal topladığım üçün qəbul ola bilmədim. Amma bu arzu məni tərk etmədi". A.Qasımova sonradan ailə qurduğu üçün arzusunun arxasınca gedə bilməyib. Özünü ailəsinə həsr edib. Üç övladı dünyaya gəlib, onların tərbiyəsi, qayğıları ilə məşğul olub. "Amma ürəyimdə oxumaq arzusu qalmışdı. Həmişə psixoloji şəxsi inkişaf kitabları alıb mütaliə edirdim. Böyük qızım Nərmin universitetə hazırlaşanda oxumaq arzum daha da gücləndi. İnsanın həyata keçməyən arzusu içində natamamlıq hissi yaradır. Son illər bu hiss məni daha çox narahat edirdi. Ailəmdə heç bir problemim yox idi, maddi vəziyyətimiz də yaxşı idi. Amma içimdəki boşluğu hiss edirdim. deyəndə yoldaşımın "səni dəstəkləyirəm" deməsi əsl motivasiya oldu. O, özü də vaxtilə qəbul imtahanından kəsilmişdi. Atası, qardaşı həkim idi, o isə təhsilini davam etdirə bilməmişdi, ticarətlə məşğul olurdu. Oxumaq arzusu onu da tərk etməmişdi. Buna görə də bizim təhsilimiz üçün çalışdı".

**"QIZIMA "MƏN DƏ SƏNİNLƏ BİRLİKDƏ HAZIRLAŞIM" DEDİM"**

Qızı Nərmin qəbula hazırlaşanda Aygün xanım da masanın digər başında oturub: "Nərmin 10-cu sinifdə oxumağa başlayanda "mən də səninlə birlikdə hazırlaşım" dedim. Buna daxilən hazır olduğumu hiss etdim. Kiçik qızımı məktəbəhazırlığa aparıb onu çöldə gözləyəndə vaxtımın boşa getməməsi üçün "Youtube"dan dərslərə baxırdım. Eyni zamanda, rus dili fənni üzrə hazırlığa gedir, 11-ci sinif uşaqları ilə birlikdə hazırlaşırdım. Sonradan o uşaqların hamısından çox bal topladım. Evdə də digər fənlərə özüm hazırlaşır, bilmədiklərimi Nərmindən soruşurdum. Buraxılış imtahanından 180-dən çox bal topladım. Blok imtahanını da verib ümumi 389 balla ADPU-da təhsildə sosial psixologiya xidməti ixtisasını seçdim".

A.Qasımovanın hekayəsi ürəyində oxumaq arzusu olan, amma bu addımı atmağa cəsarət etməyən və ya sonraya saxlayan adamlar üçün gözəl nümunədir: "Mən Salyan rayonunda yaşayırdım. Çöl-bayır tanımırdım. Birdən-birə əyani oxumaq istəyim hamıya təəccüblü gəldi. Amma öz içimdə artıq buna hazır idim. İnsanın hədəfi olanda onu heç nə qorxutmur. Bir addım atanda artıq bütün qapılar Ətrafda da səni dəstəkləyən insanlar çıxır. Əgər bu, sənin xəyalındırsa, cəsarət göstərməlisən".

Sonrakı mərhələdə Aygünün həyat yoldaşı da ailəsi üçün fədakarlığını davam etdirib: özü rayonda yaşayıb işləsə də, Bakıda onlar üçün mənzil alıb, maddi və mənəvi dəstəyini əsirgəməyib. "Kiçik qızımı 1-ci sinfə yola saldım, özüm də universitetin 1-ci kursunda təhsil almağa başladım". A.Qasımova ali məktəbi oxuduğu qrupdan məzun olan 26 nəfər arasında fərqlənmə diplomu alan dörd məzundan biri kimi başa vurub. O, "Heç vaxt gec deyil!" fikirlərini həyat şüarına çevirib: "Gecdir" sözü insanın öz beynində qoyduğu sərhəddir. Öz istəyinin ardınca getmək istəyəndə elə bil gözəgörünməz bir əl hər şeyi yoluna qoyur. "Mən o yaşda oxumalıydım, bu yaşda yox" - deyə bir qayda yoxdur. Həyatı canlı yaşamaq istəyirsənsə, istəyini reallaşdıranda o canlılıq da həyatına qatılır. Mən oxumağa başlayanda elə bil ikinci həyatı yaşadım. Bu, yeni bir həyat idi".



**Fotolar:** Məhəmməd Suanverdiyev/Global Photostock

## "Bu yaşda oxumağı neynirsən?"

A.Qasımova deyir ki, illər sonra ali məktəbə qəbul olmasına birmənalı yanaşmayanlar da olub: "Yaşlı vaxtında oxumağı neynirsən?" deyənlər də vardı. Atam "Sən ailənə çox bağlısan, qiyabi oxusan daha yaxşıdır. Fikrin uşaqlarının yanında qalacaq" dedi. Amma mən tələbə həyatını hiss etmək istəyirdim. İşimi planlı qurdum və öhdəsindən gəldim. Digər iki qızım da əlaçıdırlar. İçimdəki reallaşmayan arzuya can verdim, o da mənə enerji verdi. Məncə, "hər şərait düzəlsin, sonra arzumun dalıyca gedim" deyə düşünmək yanlışdır. Oxumaq mənim həyatımda çox şeyi dəyişdi. Sevinirəm ki, ali məktəbə qəbul olmağım çox insana motivasiya oldu".

**PSİXOLOQ İŞLƏMƏK HAQQINDA DÜŞÜNÜR**

A.Qasımova hazırda psixoloq işləmək haqqında düşünür: "Yoldaşım "magistraturada da oxu" deyir. Amma mən işləmək, ailəmə dəstək olmaq istəyirəm. Hazırda PİQ imtahanı vermək üçün hazırlaşıram. Təcrübə müddətində müşahidə etdim ki, məktəblərdə bu işə böyük ehtiyac var. Mərkəzlərdə işləmək üçün vakansiyalara baxanda əsasən 40 yaş həddi ilə qarşılaşırsan. Dövlət məktəblərində isə belə bir məhdudiyyət yoxdur".

**HEÇ VAXT UNUDULMAYACAQ GÜN**

Qızı Nərmin isə hazırda magistratura imtahanı verib ixtisas seçimini gözləyir: "Anam mənim dostumdur. Birgə tələbə olmağımız bizi həm də dostlaşdırdı".

Nərmin "Məzun günü"nü qürurla xatırlayır: "Bu, həyatımızda heç vaxt unutmayacağım gün oldu. Bizi məzun çəkilişi üçün Filarmoniya bağına aparmışdılar. Təsadüfən anamgilin də qrupunu o bağa gətirdilər. Təsadüfən hər ikimiz məzun mantiyası və papağında bağda görüşdük və birgə foto çəkdirdik. Bu, qürur dolu bir an idi..."



# SOCAR SÜNİ İNTELLEKTİN TƏTBİQİNİ GENİŞLƏNDİRƏCƏK




SOCAR-da rəqəmsal transformasiya üzrə həyata keçirilən layihələr istehsalatın, korporativ idarəetmənin və məlumat əsaslı qərarvermənin daha da təkmilləşdirilməsinə, vahid rəqəmsal ekosistemin formalaşdırılmasına və rəqəmsallaşma səviyyəsinin ardıcıl şəkildə artırılmasına mühüm töhfə verir.

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) istehsalat müəssisələrində süni intellekt və Sənaye 4.0 texnologiyalarının tətbiqini genişləndirməyi planlaşdırır. Bu barədə "Report"un sorğusuna cavab olaraq SOCAR-dan bildirilib.
"Məqsəd enerji səmərəliliyinin artırılması, sənaye təhlükəsizliyinin gücləndirilməsi, ekoloji göstəricilərin yaxşılaşdırılması və məlumat əsaslı idarəetmə modelinin daha da inkişaf etdirilməsidir. Bu təşəbbüslər vasitəsilə SOCAR regionun ən qabaqcıl rəqəmsal enerji şirkətlərindən biri kimi mövqeyini daha da gücləndirməyi və müasir texnologiyalar vasitəsilə bütün maraqlı tərəflər üçün davamlı dəyər yaratmağı hədəfləyir", - məlumatda qeyd olunub.

### KORPORATİV STRATEGİYANIN ƏSAS PRİORİTETLƏRİNDƏN BİRİ

Bildirilir ki, rəqəmsal transformasiya SOCAR-ın korporativ strategiyasının əsas prioritetlərindən biridir:
"Son illərdə SOCAR istehsalatın rəqəmsallaşdırılması, korporativ idarəetmənin təkmilləşdirilməsi və məlumat əsaslı qərarvermənin inkişafı istiqamətində genişmiqyaslı layihələr həyata keçirir. Bu layihələr sırasında əməliyyat səmərəliliyinin artırılması, sənaye təhlükəsizliyinin gücləndirilməsi, məlumat əsaslı idarəetmənin inkişafı və korporativ proseslərin rəqəmsallaşdırılmasına yönəlmiş bir sıra strateji təşəbbüslər xüsusi əhəmiyyət kəsb edir. SOCAR-da əməyin mühafizəsi, sənaye təhlükəsizliyi və ətraf mühitin mühafizəsi istiqamətində iş icazələrinin, təhlükəsizlik hadisələrinin və risklərin vahid rəqəmsal mühitdə idarə olunmasını təmin edən yeni həllin tətbiq edilməsi qərarvermənin operativliyinin artırılmasına və təhlükəsizlik proseslərinin daha effektiv təşkilinə imkan yaradır".
Qeyd olunub ki, neft və qaz hasilatı proseslərinin rəqəmsallaşdırılması istiqamətində atılan addımlar məlumatların operativ emalına, hesabatlılığın təkmilləşdirilməsinə və qərarvermədə səmərəliliyin artırılmasına töhfə verir:
"Korporativ idarəetmənin təkmilləşdirilməsi istiqamətində müasir "İnsan resursları idarəetməsi" sistemi tətbiq edilməklə insan resurslarının idarə olunması üzrə mövcud rəqəmsal imkanlar genişləndirilib və proseslərin vahid platforma üzərindən daha səmərəli idarə olunması təmin edilib. İnformasiya texnologiyaları xidmətlərinin daha səmərəli idarə olunması məqsədilə vahid "IT Service Management" (ITSM) həlli tətbiq olunur. Bu yanaşma İT xidmətlərinin vahid standartlar əsasında idarə olunmasına, xidmət keyfiyyətinin artırılmasına və istifadəçi müraciətlərinin daha effektiv idarə edilməsinə imkan yaradır. Hazırda əksər IT xidmətlər vahid platforma üzərindən idarə edilir. Məlumat əsaslı idarəetmənin inkişafı məqsədilə "Korporativ Məlumat Platforması" (Enterprise Data Platform - EDP) üzrə də işlər həyata keçirilir".

## RƏQƏMSAL TRANSFORMASİYANIN İNKİŞAF MƏRHƏLƏSİ

Məlumatda vurğulanıb ki, SOCAR Milli Məlumat Mübadiləsi Sistemi ("Digital Bridge") vasitəsilə Elektron Hökumət İnformasiya Sisteminə (EHİS) qoşulub və EHİS vasitəsilə dövlət qurumlarının informasiya sistemləri ilə elektron məlumat mübadiləsini həyata keçirir. Bununla yanaşı, dövlət qurumları ilə elektron sənəd mübadiləsinin həyata keçirilməsi məqsədilə Rəqəmsal Sənəd Dövriyyəsi (RSD) sisteminə inteqrasiya təmin olunub. Bu istiqamətdə işlər davam etdirilir.
SOCAR-dan bildirilib ki, süni intellekt (AI), Böyük Məlumat ("Big Data") analitikası və ağıllı avtomatlaşdırma texnologiyaları şirkətin rəqəmsal transformasiya strategiyasının növbəti inkişaf mərhələsini təşkil edir: "Yaxın və ortamüddətli dövrdə bu texnologiyaların korporativ idarəetmə, istehsalat prosesləri, analitik qərarvermə və əməliyyat səmərəliliyinin artırılması istiqamətlərində tətbiqinin daha da genişləndirilməsi nəzərdə tutulur. Bununla yanaşı, əməkdaşların gündəlik fəaliyyətlərində süni intellekt texnologiyalarından daha geniş istifadəsini təmin etmək məqsədilə "Süni İntellekt Agent Platformasının" tətbiq imkanlarının genişləndirilməsi və yeni istifadə ssenarilərinin inkişaf etdirilməsi planlaşdırılır. EDP üzrə işlərin növbəti mərhələsində digər korporativ informasiya sistemlərinin platformaya inteqrasiyası davam etdiriləcək.
Bu, məlumatların vahid platformada konsolidasiyasını təmin etməklə analitik imkanların genişləndirilməsinə, Süni İntellekt həllərinin daha effektiv tətbiqinə və məlumat əsaslı qərarvermənin daha da inkişaf etdirilməsinə şərait yaradacaq".

## "SÜNİ İNTELLEKT AGENT PLATFORMASI" HAZIRLANIB

SOCAR-dan bildirilib ki, əməkdaşların gündəlik fəaliyyətlərində süni intellekt texnologiyalarından daha səmərəli istifadə etmələrini təmin etmək məqsədilə "Süni İntellekt Agent Platforması" hazırlanıb:
"Platforma əməkdaşlara öz fəaliyyət istiqamətlərinə uyğun süni intellekt (AI) agentləri yaratmaq və onları gündəlik iş proseslərində tətbiq etmək imkanı yaradır. SOCAR-ın rəqəmsal transformasiya sahəsində əldə etdiyi ən mühüm beynəlxalq nailiyyətlərdən biri SOCAR Karbamid zavodunun Dünya İqtisadi Forumunun "Qlobal mayak" şəbəkəsinə qəbul olunması və "Rəqəmsal mayak" mükafatına layiq görülməsidir. Bununla SOCAR dünyada bu mükafatı üç dəfə qazanan yeganə enerji şirkəti olub. Zavodda tətbiq edilmiş 42 rəqəmsal və süni intellekt əsaslı həll nəticəsində məhsuldarlıq 21 %, təbii qazdan istifadə səmərəliliyi 24 % artıb, karbon emissiyaları 19 %, proses tullantıları 72 %, planlaşdırılmamış dayanma müddəti isə 82 % azalıb".

Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 917
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# DEMOQRAFİYADA NARAHATEDİCİ STATİSTİKA

2026-cı ilin ilk beş ayında Azərbaycanda doğum sayı ötən ilin eyni dövrü ilə müqayisədə 26 faiz azalıb. Mütəxəssislər bu tendensiyanı ailə qurma yaşının artması və dəyişən həyat tərzi ilə əlaqələndirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda demoqrafik göstəricilərdə son illərin ən nəzərəçarpacaq azalması qeydə alınıb. Dövlət Statistika Komitəsinin rəsmi məlumatına görə, 2026-cı ilin yanvar-may aylarında ölkədə doğum sayı ötən ilin eyni dövrü ilə müqayisədə 26 faiz aşağı düşüb. Hər 1000 nəfərə düşən doğum əmsalının 9,2-dən 8,5-ə enməsi və cəmi bir il ərzində doğulan körpələrin sayında 10 205 nəfərlik fərqin yaranması narahatlıqla qarşılanır. Doğumların bu qədər qısa müddətdə azalmasının əsas səbəbi nədir?

### "BU PROSES DÜNYADA DA BAŞ VERİR"

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin əməkdaşı Nərgiz Sədrəddinbəylinin sözlərinə görə, doğum səviyyəsində müşahidə olunan dəyişikliklər təsadüfi deyil. Bu, həm obyektiv iqtisadi reallıqların, həm də subyektiv həyat tərzi seçimlərinin yaratdığı kompleks prosesdir. Ölkəmiz qlobal demoqrafik tendensiyaların təsirindən kənarda qalmadığı üçün bu gün Azərbaycanda da ailə qurmaq və valideyn olmaqla bağlı yeni reallıqlar formalaşır: "Vəziyyətin obyektiv səbəbləri Dövlət Komitəsinin apardığı təhlillərdə öz əksini tapıb. Rəsmi statistika ilə beynəlxalq rəqəmlərin müqayisəsi azalma prosesinin qlobal xarakter daşıdığını göstərir. BMT-nin son qiymətləndirmələrinə görə, qlobal doğum göstəricisi, yəni bir qadına düşən orta uşaq sayı 2024-cü ildə 2.2-yə enib. Bu rəqəm əhalinin özünü təbii yolla bərpa etməsi üçün qəbul edilən 2.1 səviyyəsinə yaxındır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələrinin təcrübəsinə nəzər saldıqda isə, doğum səviyyəsinin son 60 ildə təxminən iki dəfə azaldığını görürük. İƏİT-nin araşdırmaları göstərir ki, bu azalmanın əsas xüsusiyyətlərindən biri ilk övladın daha gec yaşda dünyaya gətirilməsidir. Orta hesabla anaların doğuş yaşı 1980-ci ildəki 27 yaşından 2022-ci ildə 30.9 yaşa qədər yüksəlib ki, bu da evlilik yaşının artması ilə birbaşa əlaqəlidir".



Nərgiz Sədrəddinbəyli



## "MÜASİR AİLƏLƏR KƏMİYYƏTDƏN ÇOX KEYFİYYƏTƏ DİQQƏT YETİRİR"

Komitə rəsmisi əlavə edir ki, rəqəmlərin arxasında dayanan əsas subyektiv amil müasir gənclərin prioritetlərinin dəyişməsidir: "Onlar ilk növbədə ali təhsil almağa, karyera qurmağa, fərdi inkişafa və həyatlarını maddi baxımdan təmin etməyə üstünlük verirlər. Lakin bu tendensiyanın müsbət tərəfi də var: bu, ailə qurmaq və övlad sahibi olmağın müasir dövrdə daha çox düşünülmüş və planlı qərar kimi qiymətləndirildiyini göstərir. Gənc ailələr bu addımı daha məsuliyyətlə atır, uşağın sağlam inkişaf edə biləcəyi mühit formalaşdırmağa çalışırlar. Müasir ailələr kəmiyyətdən çox keyfiyyətə, uşaqların rifahına və təhsilinə diqqət yetirirlər. Mövcud çağırışlara dövlət səviyyəsində cavab verilməsi məqsədilə hazırda tədqiqatlara istinad edən "Ailə Konsepsiyası" sənədi üzərində iş aparılır ki, bu da doğum səviyyəsinin tənzimlənməsindən iş və ailə həyatının balanslaşdırılmasına qədər bir sıra məsələləri özündə əks etdirəcək".

### "CƏMİYYƏTİN REPRODUKTİV DAVRANIŞINDA FƏRQLİLİKLƏR YARANIB"

"Yeni Həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyinin sədri Nailə İsmayılova isə hesab edir ki, demoqrafik göstəricilərdə müşahidə olunan son dəyişikliklər ölkənin gələcək əmək bazarı, iqtisadi inkişafı və sosial müdafiə sistemi baxımından ciddi nəzərə alınmalı olan məsələdir: "Bir il ərzində 26 faizlik geriləmə cəmiyyətin reproduktiv davranışında fərqliliklərin yarandığını göstərir. Bu rəqəmlər sübut edir ki, vətəndaşlar övlad sahibi olmaq qərarını təkcə təxirə salmır, bəzən də maddi və sosial amillərə görə bu addımdan çəkinirlər. Tendensiyanın bu şəkildə davam etməsi gələcəkdə təhsil sisteminə təsir göstərəcək. Əvvəlcə məktəblərdə şagirdlərin sayı azalacaq, daha sonra ali təhsil müəssisələrində qəbul göstəriciləri enəcək. Bunun məntiqi davamı kimi ölkənin əmək bazarında işçi qüvvəsinin azalması müşahidə ediləcək. Nəticə etibarilə cəmiyyətdə yaşlı əhalinin xüsusi çəkisi artacaq".



### "QADINLAR KARYERA VƏ ANALIQ ARASINDA SEÇİM ETMƏLİ OLURLAR"

Ekspertin fikrincə, bu azalmanın yalnız qlobal tendensiya ilə izah etmək kifayət etməz: "Məsələnin kökündə ilk növbədə iqtisadi amillər dayanır. Mənzil problemi, kirayə haqları, eləcə də uşağın ehtiyaclarının qarşılanması və təhsil xərclərinin artması gənc ailələri növbəti övlad haqqında düşünməkdən çəkindirir. Qadınların sosial həyatda və əmək bazarında fəallığının artması cəmiyyət üçün müsbət irəliləyiş olsa da, işləyən analar üçün zəruri infrastrukturun əlçatan məktəbəqədər təhsil müəssisələrinin, dayə xidmətlərinin və iş yerlərində çevik qrafiklərin məhdudluğu onları karyera və analıq arasında seçim etməyə məcbur edir. Dövlət gənc ailələr üçün maliyyə dəstəyi mexanizmlərini tətbiq etməli, doğuma görə birdəfəlik və aylıq ödənişlər sistemini beynəlxalq təcrübələrə uyğunlaşdırmalı, çoxuşaqlı valideynlərə mənzil və vergi güzəştləri təmin edilməlidir".

### "GƏNC NƏSİL HƏR BİR ADDIMINI HESABLAYARAQ ATIR"

Sosioloq Naib Niftəliyev isə qeyd edir ki, mövcud vəziyyət psixoloji və mədəni dəyişikliklərlə iqtisadi reallıqların kəsişməsində yaranıb. Bu gün gənc nəsil hər bir addımını hesablayaraq atır: "Ailə qurub uşaqsız həyat tərzi seçənlərin sayı artsa da, Azərbaycan cəmiyyətində bu qrup hələ də azlıq təşkil edir. Əsas məsələ, potensial olaraq ən azı iki övlad istəyən gənclərin artan xərclər qarşısında ehtiyatlı davranmasıdır. Yeni ailə qurmağın tələb etdiyi vəsait gənclər üçün maliyyə yükü yaradır ki, bu da ilk uşağın planlaşdırılmasını gecikdirir. Bioloji yaşın irəliləməsi də ailədəki ümumi uşaq sayının azalmasına birbaşa təsir edən faktordur". Sosioloqun qənaətinə görə, vəziyyətdən çıxış yolu dövlətin ailəyönümlü sosial siyasət konsepsiyasını inkişaf etdirməsidir.



Nailə İsmayılova

# İSTİ HAVALARDA BU SƏHVLƏRİ ETMƏYİN!

İsti havalarda həzm sisteminin fəaliyyəti zəifləyir, qidaların həzm prosesi isə uzanır. Bu səbəbdən yay aylarında köhnəlmiş və tez xarab olan məhsullardan istifadə edilməməli, porsiyalar nisbətən kiçildilməlidir.

SEVİNC ABBASOVA

Yay aylarında havanın temperaturunun yüksəlməsi qida zəhərlənməsi riskini də artırır. Xüsusilə düzgün saxlanılmayan ət, balıq, süd məhsulları və digər tez xarab olan qidalar sağlamlıq üçün təhlükə yarada bilər. Bəs qida zəhərlənməsindən qorunmaq üçün hansı qaydalara əməl edilməlidir? İsti aylarda daha çox hansı qidalar zəhərlənmə riski daşıyır?

### YEMƏK PORSİYALARININ AZALDILMASI MƏQSƏDƏ UYĞUN SAYILIR

Həkim-terapevt Nərminə Abbasova deyir ki, yay aylarında köhnəlmiş və tez xarab olan məhsullardan istifadə edilməməli, porsiyalar nisbətən kiçildilməlidir. Çünki isti havalarda həzm sisteminin fəaliyyəti zəifləyə, qidaların həzm prosesi uzana bilər. Mütəxəssisin sözlərinə görə, bəzən insanlar zəhərlənməni yalnız kənardan alınan qidalarla əlaqələndirsələr də, bu hər zaman belə olmur: “Həzm prosesi ləngidikdə qida orqanizmdə daha uzun müddət qalır və toksiki təsir göstərir. Bu da qida zəhərlənməsinə bənzər əlamətlər yarada bilər”.

Terapevt bildirir ki, yay aylarında ən yüksək risk daşıyan məhsullar balıq, ət və tez xarab olan süd məhsullarıdır. Tərəvəz və meyvələrin istehlakı tövsiyə olunsa da, onların yaxşı yuyulması və etibarlı mənbədən alınması vacibdir. Çünki bəzi hallarda kənd təsərrüfatında istifadə olunan kimyəvi maddələrin qalıqları da sağlamlığa mənfi təsir göstərir.

Həkim qeyd edir ki, qida məhsulları alındıqdan sonra vaxt itirmədən soyuducuya yerləşdirilməli, soyuducunun düzgün temperaturda işləməsinə və məhsulların qablaşdırılmasının sağlam olmasına diqqət yetirilməlidir.


Məhsəti Hüseynova

### SAĞLAM HƏYAT TƏRZİ VƏ PROFİLAKTİK TƏDBİRLƏR DAHA EFFEKTİVDİR

N.Abbasovanın sözlərinə görə, yay aylarında orqanizmin toksinlərdən təmizlənməsinə dəstək olmaq üçün kifayət qədər maye qəbul etmək böyük əhəmiyyət daşıyır. O, qazlı və tərkibində çoxlu kimyəvi əlavələr olan içkilərin əvəzinə ılıq su və təbii mayelərə üstünlük verilməsini tövsiyə edir.

Həkim əlavə edir ki, nanə, bağayarpağı kimi bitkilərdən hazırlanan dəmləmələrdən profilaktik məqsədlə istifadə etmək də faydalıdır. Onun fikrincə, sağlam həyat tərzi və profilaktik tədbirlər qida zəhərlənməsinin qarşısını almaqda sonradan aparılan müalicədən daha effektivdir.

### “ZƏHƏRLƏNMƏNİN SƏBƏBİ HƏR ZAMAN KEYFİYYƏTSİZ MƏHSUL OLMUR”

Qida təhlükəsizliyi üzrə mütəxəssis Məhsəti Hüseynova isə hesab edir ki, yay mövsümündə yüksək risk qrupuna daxil olan qidaların saxlanma qaydalarına xüsusi diqqət yetirilməlidir. Onun sözlərinə görə, heyvan mənşəli məhsullar, xüsusilə ət və ət məhsulları zülal tərkibli olduqları üçün daha tez xarab olur. Buna görə də həm çiy, həm də bişmiş ət məhsulları soyuq qida zənciri qorunmaqla saxlanılmalı, yalnız istehlak ediləcək qədər bişirilməlidir.

M.Hüseynovanın sözlərinə görə, süd və süd məhsulları, balıq və dəniz məhsulları da yay aylarında daha tez xarab olan qidalar sırasındadır. Bu məhsullar etibarlı satış məntəqələrindən alınmalı, soyuducuda saxlanılmalı və mümkün qədər təzə halda istehlak edilməlidir. Yumurta, yumurtadan hazırlanan souslar, mayonez, həmçinin tiramisu, çizkeyk və müxtəlif kremli şirniyyatlar da riskli məhsullar hesab olunur.

Mütəxəssis mövsümdənkənar meyvə və tərəvəzlərin istehlakı zamanı da diqqətli olmağı tövsiyə edir. Onun sözlərinə görə, bu məhsulların yetişdirilməsi zamanı istifadə olunan kimyəvi maddələr, gübrələr və hormonlar xüsusilə uşaqlar, yaşlılar, xroniki xəstəliyi olan şəxslər, hamilə və uşağa süd verən qadınlar üçün əlavə risk yarada bilər.









Ekspert qeyd edir ki, qida zəhərlənməsinin səbəbi hər zaman keyfiyyətsiz məhsul olmur. Keyfiyyətli məhsul belə düzgün saxlanılmadıqda onun tərkibində bakteriyalar sürətlə çoxalaraq sağlamlıq üçün təhlükə yarada bilər. Yay aylarında bişmiş yeməklərin otaq temperaturunda saxlanma müddəti minimuma endirilməlidir. Əgər qışda bu müddət iki saata qədər hesab olunursa, yayda yeməklər mümkün qədər yarım saat ərzində soyuducuya yerləşdirilməlidir.

### İSTİ HAVALARDA BAKTERİYALAR DAHA SÜRƏTLƏ ÇOXALIR

Həkim-infeksionist Mərdan Əliyev deyir ki, yay aylarında qida zəhərlənməsi hallarının artmasına əsas səbəb bakteriyaların sürətlə çoxalması üçün əlverişli şəraitin yaranmasıdır. Onun sözlərinə görə, otaq temperaturunda saxlanılan qidalar qısa müddətdə mikroorqanizmlərlə çirklənir və həmin qidaların istehlakı qida zəhərlənməsinə səbəb olur. “Hazır mikroblarla çirklənmiş qidalar mədə-bağırsaq sisteminə daxil olduqda ürəkbulanma, qusma, ishal, qarın ağrısı kimi əlamətlər yaranır. Daha ağır hallarda yüksək hərarət, orqanizmdə maye itkisi və halsızlıq da müşahidə edilir”, – deyə həkim bildirir.

M.Əliyev yay mövsümündə qarpızın istifadəsi zamanı da diqqətli olmağı tövsiyə edir. O bildirir ki, bostan məhsullarının yetişdirilməsi zamanı istifadə olunan dərman və gübrələrin qalıqları xüsusilə qabıq hissəsində qala bilər. Buna görə də qarpız kəsilməzdən əvvəl mütləq axar su altında yaxşı yuyulmalıdır.



## SOYUDUCUDA SAXLANILAN QİDALAR


Mərdan Əliyev

İnfeksionistin sözlərinə görə, qidaların düzgün saxlanılması zəhərlənmələrin qarşısının alınmasında əsas şərtlərdən biridir. Qidalar uyğun temperatur rejimində işləyən soyuducuda saxlanılmalı, bişmiş yeməklər isə hazır olduqdan qısa müddət sonra soyuducuya yerləşdirilməlidir. M.Əliyev qeyd edir ki, soyuducuda saxlanılan qidaları da uzun müddət gözlətmək düzgün deyil. Bişmiş yeməklərin bir-iki gündən artıq saxlanılması mikroorqanizmlərin çoxalma ehtimalını artırır və nəticədə qida zəhərlənməsi riski yüksəlir.

Mütəxəssis günəş altında saxlanılan plastik butulkalardakı suların alınmasını və istehlakını da məqsədəuyğun hesab etmədiyini bildirir. Onun sözlərinə görə, yüksək temperaturun təsiri altında uzun müddət günəşdə qalan plastik qablar sağlamlıq üçün əlavə risk yarada bilər.

# KÜLƏKLİ HAVA, QADAĞALARA LAQEYD MÜNASİBƏT



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Çimərlik mövsümünün başlaması ilə dənizdə boğulma halları da artır. Səbəb kimi dənizin təbii xüsusiyyətlərinin dəyişməsi, suyun çəkilməsi, relyefin fərqli olması ilə bağlı fikirlər səsləndirilir.

Yay mövsümü başlar-başlamaz hər il qarşılaşdığımız acı mənzərə yenə də təkrarlanır: insanların dənizdə boğulması xəbərləri gündəmi sarsıdır. Belə məqamlarda "üzə bilmirdisə, suda nə işi vardı?", "ehtiyatsızlıq edib" kimi qınaqlarla yanaşı, dənizin təbii xüsusiyyətlərinin dəyişməsi - suyun çəkilməsi, relyefin fərqli olması ilə bağlı fikirlər də səslənir. Son vaxtlar isə bu fikirlərə dənizin təkcə sahilinin deyil, içərisindəki qumların da işbazlar tərəfindən daşınması xəbərləri əlavə olunub.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) "Dünyada hər saat orta hesabla 30-dan çox insan boğularaq həyatını itirir" statistikasında bizim insanların da yer alması böyük məyusluq doğurur.

Dənizdəki faciələrlə bağlı hazırkı vəziyyət problemin bütün tərəflərinə nəzər salmağı zəruri edir.

### "İNSANLAR NORMAL ÇİMMƏK ÜÇÜN SAHİLDƏN UZAQLAŞMALI OLURLAR"

AMEA Coğrafiya İnstitutunun Ekocoğrafiya şöbəsinin müdiri Ənvər Əliyevin sözlərinə görə, Xəzər dənizində suyun səviyyəsinin azalması müəyyən problemlər yaradıb: "İndi dənizdə hansı zona boğulma zonasıdır, demək çətindir. Dəniz elədir ki, istənilən an adam avtomaşınını sürüb başqa yerə gedə, yaşadığı yerdən uzaq, iş yerinə yaxın ərazidə çimə bilər. Xəzər dənizinin elə sahələri vardı ki, 50-100 metr, maksimum qurşağa qədər dərin idi. Həmin yerlərdə çimmək üçün kifayət qədər genişlik vardı və ailələr, uşaqlar üçün qorxulu deyildi. Təəssüf ki, indi bu ərazilər quruyub və ya həddən artıq dayazlaşıb. İnsanlar normal çimmək üçün sahildən uzaqlaşmalı olurlar. Daha dərin sahələrin də başqa problemləri var".

## "KÜLƏKLİ HAVALARDA BOĞULMAQDAN QURTULMAQ ÇOX ÇƏTİNDİR"

Alimin fikrincə, boğulma hallarının baş verməsində havanın küləkli olması da böyük rol oynayır: "Külək dənizdə həddən artıq böyük dalğalar yaradır. Dalğalar beş metr sahilə doğru gəlirsə, ondan bir qədər artıq geri çəkilir. Çox adam məsuliyyətini anlamır və küləkli havada suya girir. Bir neçə dəfə belə hadisələrə rast gəlmişik və adamları güclə boğulmaqdan xilas etmişik. Küləkli havalarda dənizdə boğulmaqdan qurtulmaq çox çətindir. Digər tərəfdən, bəzi adamların heç xəbəri yoxdur ki, ürək-damar sistemlərində problem var: sahildə günəşli havada dayanır, ürək sakitcə işləyir, qəfildən soyuq suya girir və damalarda daralma gedir. Buna "sauna effekti" deyilir. Su soyuq olanda qıcolmalar artır, damarlar daralır. Onda funksional ürək dəyişikliyi baş verir və insanın batma ehtimalı çoxalır. Çünki bədən bu vəziyyətə hazır deyil". Alim bildirir ki, insanların qadağan olunmuş ərazilərdə çimməsi də böyük təhlükələrdəndir: "Qadağan olunmuş ərazilərdə çimmək insanı yüz faiz ölümə sürükləyir. Üzərkən çox dərinə getmək müqavimət hissini, gücü azaldır. Həmçinin dənizin relyefində də dəyişiklik var, 10 metr qabaqda səni nə gözlədiyini bilmirsən". Ə.Əliyev hesab edir ki, bütün çimərliklərdə qadağan olunan ərazilərdə nişanlar tənzimlənməlidir: "Gecə çimməklə bağlı cərimələr olmalıdır. Gecələr yemək yeyib dənizə girənlər adətən içkili adamlar olur. Onların da batmaq ehtimalı daha çoxdur. DİN, FHN və digər aidiyyəti qurumlar bu istiqamətdə nəzarəti gücləndirməlidirlər".

### "DƏNİZ AMANSIZ DEYİL, İNSANLAR LAQEYDDİRLƏR"

"Ekoloq" Ətraf Mühitin Qorunmasına Yardım İctimai Birliyinin rəhbəri Aynurə Miriyeva baş verən faciələrdə dənizi deyil, insanları qınayır: "Dəniz amansız deyil, insanlar məsuliyyətsiz və laqeyddirlər. Dənizdə batma hallarının böyük faizi içkili halda suya girməklə bağlıdır. Alkoqol insanın qorxu hissini azaldır, özünəinamı süni şəkildə artırır və reaksiyaları gecikdirir. İsti havadan birdən-birə soyuq suya daxil olduqda bədəndə temperatur şoku yaşanır. Belə hallarda təcrübəli üzgüçülərin belə dənizdə boğulduqlarını eşidirik. Səbəb də dənizdə olan özül axıntıdır. Dalğaların sahilə gətirdiyi su sürətlə geri çəkəndə buna heç bir insan gücü dayana bilmir". Ekoloq bildirir ki, Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi sualtı relyefi də dəyişib: "İndi bir çox yarğanlar, fərqli axınlar yaranıb ki, bunlar da ölüm təhlükəsini çoxaldıb. İcazəsiz zonalarda "üzmək təhlükəlidir!" nişanına biganə yanaşmaq, xəbərdarlıqlara riayət etməmək, tez-tez baş verən hava dəyişiklikləri dənizdə batmaların sayını çoxaldır".

## "BİLGƏH VƏ BUZOVNA TƏRƏFLƏRDƏ AXINTILAR DAHA ÇOXDUR"

Dalğıc Füzuli Nəbiyev isə deyir ki, dənizdə boğulma hallarında üzmək bacarığının olmaması, suya içkili girmək və havanın küləkli olması amilləri böyük rol oynayır: "Dənizdə axıntılar var. Axıntılar xüsusən əks istiqamətə üzməyi bacarmayanları aparır. Bilgəh və Buzovna tərəflərdə axıntılar daha çoxdur. Amma "filan yerdə boğulma riski daha yüksəkdir" demək olmaz. Çünki axıntılar yerlərini dəyişirlər". F.Nəbiyev hər il suda boğulma hallarının artmasını həm də peşəkar xilasedicilərin sayının az olması, bu sahəyə təsadüfi adamların yol tapması ilə əlaqələndirir: "Çimərliklərdə nəzarət o qədər də güclü deyil. Xilasedicilərin özləri belə təcrübəli deyillər. Normalda xilsaedicilər dənizi tanımalı, suya girənin hansı istiqamətə üzəcəyini bilməlidirlər. Təəssüf ki, hazırda belə peşəkarlar azdır". F.Nəbiyev insanları məsuliyyətsizlikdə də qınayır: "Heç kəsə yaxınlaşıb "orada üzmə", "o əraziyə getmə" demək olmur. İçkili adama "geri qayıt" deyəndə sənə sərt cavab verir".

Dalğıc hesab edir ki, dənizdə təhlükəli zonalar, küləkli havanın təhlükəsi və s. ilə bağlı insanların məlumatlılığının artmasına ehtiyac var: "İnsanlar təlimatlanmalıdırlar. Bilməlidirlər ki, məsələn, külək varsa, axıntı da var. Bu isə həyat üçün təhlükəlidir. Öz müşahidələrimə və təcrübəmə əsasən deyirəm ki, düzünə üzüb dərinə getmək məcburi deyil. Dərinə üzürsənsə bu, təhlükəlidir. Üzmə və boğulma..."



Foto: Tapdıq Abdullayev - Global Photostock

# YAYDA KONDİSİONERDƏN İSTİFADƏNİN QIZIL QAYDALARI

Kondisionerin gücü az seçildikdə cihaz otağı soyutmaq üçün fasiləsiz işləməyə məcbur qalır ki, bu da həm elektrik sərfiyyatını artırır, həm də avadanlığın resursuna mənfi təsir göstərir. Kondisionerin effektiv işləməsi üçün onun gücü otağın sahəsinə uyğun seçilməlidir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Yay aylarında temperaturun yüksəlməsi ilə kondisioner əksər ev və iş yerlərində zərurətə çevrilir. Lakin cihazın uzun müddət və ya düzgün istifadə olunmaması təkcə elektrik enerjisi sərfiyyatını artırmır, həm də sağlamlıqla bağlı müxtəlif problemlərə səbəb olur. Bəs kondisionerdən həm büdcəmizə, həm də sağlamlığımıza zərər vermədən necə səmərəli istifadə etmək olar?

### KONDİSİONER ÜÇÜN İDEAL TEMPERATUR

Kondisioner ustası Amid Şabiyev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, cihazın düzgün seçilməsi və istismarı həm elektrik enerjisinə qənaət etməyə, həm də onun ömrünü uzatmağa imkan verir. Kondisionerin hansı temperaturda işlədilməsi, otağın sahəsinə uyğun seçilməsi və filtrlərin vaxtında təmizlənməsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır: "Köhnə tip kondisionerlər daha çox enerji sərf etdiyi halda, yeni nəsil invertor modellər temperatur sabitləşdikdən sonra daha az elektrik enerjisi istifadə edir. Bununla belə, elektrik xərcləri yalnız cihazın xüsusiyyətlərindən asılı deyil. İstifadə vərdişləri də aylıq ödənişə ciddi təsir göstərir. Məsələn, kondisionerin 18-20 dərəcəyə qurulması onun daha intensiv işləməsinə səbəb olur. Halbuki otaq temperaturunun 23-24 dərəcə səviyyəsində saxlanılması həm rahatlıq, həm də enerji sərfiyyatı baxımından daha optimal hesab edilir. Bu göstərici həm insan orqanizmi üçün daha komfortlu hesab olunur, həm də elektrik enerjisinin daha səmərəli istifadəsinə imkan yaradır. Temperaturu həddindən artıq aşağı salmaq otağın daha tez soyuması demək deyil. Əksinə, bu, cihazın daha çox işləməsinə və əlavə enerji sərf etməsinə səbəb olur".

### "ELEKTRİK ENERJİSİNƏ 70-80 FAİZƏ QƏDƏR QƏNAƏT EDİR"

Ustanın sözlərinə görə, istifadəçilərin diqqət etməli olduğu digər məqam kondisionerin invertor texnologiyasına malik olub-olmamasıdır: "İnvertor tipli kondisionerlər adi modellərlə müqayisədə xeyli qənaətlidir. Düzgün seçilmiş keyfiyyətli invertor kondisioner elektrik enerjisinə 70-80 faizə qədər qənaət etməyə imkan verir. Buna görə də yeni kondisioner alarkən invertor modellərə üstünlük verilməsini tövsiyə edirəm".

### MƏTBƏXİN SAHƏSİ 18 KVADRATMETRDİRSƏ...

Mütəxəssis bildirir ki, kondisionerin effektiv işləməsi üçün onun gücü otağın sahəsinə uyğun seçilməlidir. Bu zaman yalnız kvadratmetr deyil, otağın təyinatı da nəzərə alınmalıdır: "Məsələn, mətbəxin sahəsi 18 kvadratmetrdirsə, onu adi yaşayış otağı kimi qiymətləndirmək düzgün deyil. Yemək hazırlanması, qaz plitəsi, soba və digər məişət avadanlıqları mətbəxdə istilik yükünü artırır. Buna görə də belə məkanlar üçün daha yüksək gücə malik, ən azı 12 min BTU-luq (British Thermal Unit – kondisionerin soyutma gücünü göstərən ölçü vahidi) kondisionerin seçilməsi məqsədəuyğundur. Düzgün gücdə seçilmiş kondisioner otağı daha qısa müddətdə soyudur, daha az enerji sərf edir və daim yüksək yüklə işləmədiyi üçün daha uzunömürlü olur".



## "KONDİSİONERİN GÜCÜ OTAĞIN SAHƏSİNƏ UYĞUN SEÇİLMƏLİDİR"

Kondisionerin gücü az seçildikdə cihaz otağı soyutmaq üçün fasiləsiz işləməyə məcbur qalır ki, bu da həm elektrik sərfiyyatını artırır, həm də avadanlığın resursuna mənfi təsir göstərir: "Kondisionerin effektiv işləməsi üçün onun gücü otağın sahəsinə uyğun seçilməlidir. Bu zaman əsas göstərici BTU-dur. BTU nə qədər yüksək olarsa, cihaz bir o qədər böyük sahəni soyutmaq qabiliyyətinə malik olur. Məsələn, 30 kvadratmetrlik otaq üçün 20 kvadratmetrə hesablanmış kondisioner seçilərsə, cihaz otağı soyutmaq üçün daha çox elektrik enerjisi sərf edəcək. Otağın sahəsinə uyğun və ya bir qədər yüksək gücə malik model isə məkanı daha qısa müddətdə soyudacaq və daha qənaətli işləyəcək. Buna görə də kondisioner alarkən ilk növbədə BTU göstəricisinə diqqət yetirilməlidir".

### "TOZSORAN İŞLƏYƏRKƏN KONDİSİONERİ SÖNDÜRÜN"

Mütəxəssis filtrlərin mütəmadi təmizlənməsinin də vacibliyini vurğulayır: "Kondisioner işləyərkən qapı və pəncərələrin bağlı saxlanılması, otağın günəş şüalarından qorunması, filtrlərin mütəmadi təmizlənməsi və cihazın vaxtaşırı texniki baxışdan keçirilməsi enerji sərfiyyatını azaltmağa kömək edir. Çirkli filtr həm cihazın daha çox işləməsinə, həm də otaqdakı havanın keyfiyyətinin pisləşməsinə səbəb ola bilər. Tozlu və torpaq sahələrinin yaxınlığında yerləşən ev və obyektlərdə kondisionerin filtrləri təxminən 10 gündən bir təmizlənməlidir. Adi mənzil şəraitində isə ayda bir dəfə təmizlənməsi kifayətdir. Həmçinin tozsoran işləyərkən kondisioneri söndürmək məsləhətdir. Çünki havaya qalxan toz hissəcikləri filtrə yapışaraq cihazın iş səmərəliliyini azalda bilər".



Amid Şabiyev

## DƏRİDƏ QURULUQ VƏ QAŞINMA, GÖZLƏRDƏ QICIQLANMA

Kondisionerdən düzgün istifadə olunmaması təkcə elektrik enerjisi sərfiyyatını artırmır, həm də sağlamlıq üçün müəyyən risklər yarada bilər.

Allergiya üzrə mütəxəssis Özge Yılmaz da bu mövzuda diqqət çəkən məqamlara toxunaraq bildirir ki, kondisionerin yaratdığı quru hava və düzgün qulluq olunmayan sistemlər sağlamlığa düşündüyümüzdən daha ciddi təsir göstərə bilər. Onun sözlərinə görə, kondisionerlərin uzun müddət işləməsi otaqdakı nisbi rütubəti azaldır: "Bu isə xüsusilə uzun müddət kondisionerli mühitdə qalan insanlarda dəridə quruluq və qaşınma, gözlərdə quruluq, yanma və qıcıqlanmaya səbəb ola bilər. Quru hava tənəffüs yollarının selikli qişasını da qurudur, nəticədə orqanizmin infeksiyalara qarşı təbii müdafiə mexanizmi zəifləyir".

Ö.Yılmaz qeyd edir ki, qapalı və kifayət qədər havalandırılmayan məkanlarda uzun müddət işləyən kondisionerlər havadakı toz, allergen və bəzi mikroorqanizmlərin yayılma riskini də artıra bilər. Bu isə xüsusilə allergiya və astma xəstələri üçün əlavə təhlükə yaradır. Mütəxəssis vurğulayır ki, bu risklərin qarşısını almaq üçün kondisionerin filtrləri mütəmadi təmizlənməli, otaq vaxtaşırı havalandırılmalı və otaq temperaturu çöldəki hava ilə kəskin fərq yaratmayacaq səviyyədə saxlanılmalıdır.

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi


# “MƏNİM EVİM-EŞİYİM MƏDƏNLƏR OLUB”

100 yaşlı neftçi Məsməli Mustafayevin çalışdığı illər təkcə əmək kitabçasına deyil, yaddaşına da ömürlük yazılıb: 57 il, 4 ay, 27 gün...



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Onu Pirallahı rayonunda uşaqdan böyüyə hamı tanıyır. Zarafat deyil, bir əsrlik ömür yolu keçib. Həyatının yarıdan çoxunu ölkənin neft sənayesinə həsr edib. Bu gün yaxasını SOCAR-ın “Fəxri neftçi” döş nişanı, İkinci Dünya müharibəsi illərində arxa cəbhədəki fədakar əməyinə və neftçi kimi peşəkar fəaliyyətinə görə aldığı orden və medallar bəzəyir. 100 yaşlı neftçinin şəkli həmişə “Azneft”in qırmızı lövhəsində əmək qəhrəmanları arasında yer alıb. Məsməli Mustafayevin çalışdığı illər təkcə əmək kitabçasına deyil, yaddaşına da ömürlük yazılıb: 57 il, 4 ay, 27 gün...

### 16 YAŞINDA NEFT MƏDƏNİNDƏ İŞLƏMƏYƏ BAŞLAYIR

Məsməli kişinin ömür yolu həm zəngin həyat təcrübəsinin, həm də Azərbaycan neft sənayesinin inkişaf tarixinin canlı şahididir.

Evində qonaq olub uşaqlığı, gəncliyi ilə bağlı xatirələrini dinlədikcə, əmək veteranının şərəfli həyat yolu göz önündən kino lenti kimi keçir. Ancaq bu kadrlarda hər şey realdır. Yaddaşına həkk olunan xatirələrlə bərabər köhnə şəkillər də onun üçün qiymətlidir. Onlara baxıb gah qürurlanır, gah kədərlənir, gah kövrəlir...

Uşaqlığı və gəncliyi müharibə illərinə düşüb. Əməyə vərdişi isə hələ altı yaşında - qonşuların buzovlarını otarmağa başlayanda yaranıb. Qazax rayonunun Aşağı Salahlı kəndində orta məktəbdə oxuyub: “Birinci sinifdən altıncı sinfə kimi sinif nümayəndəsi olmuşam. Mən dərs danışanda müəllim “baxın, yetim uşaqdır, necə gözəl oxuyur, siz niyə oxumursunuz?”, - deyə digər uşaqlara nümunə göstəririrdi”, - deyə xatırlayır: "Ata-anam vəfat edəndən sonra kimsəsiz qaldıq. Məni Qazaxa gətirdilər. Sonra Bayıl qəsəbəsində Fəhlə-gənclər məktəbində oxudum. İşləmək istəyirdim, amma “uşaqdır” deyib icazə vermədilər. İki illik peşə məktəbi kurslarında oxuyanda müharibə başladı. 16 yaşımda maşinist kimi neft mədənində işləməyə başladım. Briqadalararası müsabiqədə qalib olub birinci yeri qazananda 16 yaşım vardı. İlk medalımı yaxama Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Mirbəşir Qasımov taxdı. Boyum o qədər balaca idi ki, kişinin gözündən yaş axdı: “Neylənək olar, a bala, müharibə qurtarar, oxuyarsan” dedi”.



### “ELƏ BİL DƏNİZLƏ, BURUQLARLA SÖHBƏT EDİRDİM”

Gəncliyindən bəri işinə təkcə sevgi ilə yox, həm də məsuliyyətlə yanaşıb: “Hansı mədən geridə qalırdısa “Mustafayevi oraya göndərin” deyirdilər. Bir dəfə səhlənkarlıq üzündən bir quyu yüz tonluq fontan vurdu, qarşısını ala bilmədilər. Dənizin üstü bütünlüklə mazut idi. Məni ora gətirəndən sonra texnikanın köməyi ilə problemi həll etdim. Çalışdığım ərazidə bircə dənə də sızan quyu yox idi. İdarə edən bütün mədən müdirlərinə “bu adamı mənsiz başqa yerə göndərməyin” deyə tapşırmışdı”.

Məsməli kişi çalışdığı uzaq illərdən danışır: “Mənim evim-eşiyim mədənlər olub. Elə bil dənizlə, buruqlarla söhbət edirdim. Hər buruq neft verdikcə sevinirdim. Biz işimizin xəstəsi idik, yadımıza ev-eşik düşmürdü. Özümüzü işə həsr etmişdik. Fəhlələr də xətrimizi istəyirdilər. Mənə dövlət tərəfindən verilən evi iki övladı olan evsiz bir işçiyə verdim. Bizim zamanımızda belə idi”.

### BAKI NEFTİ MÜHARİBƏDƏ

“Mən müharibənin dəmir rejimindən keçmişəm”, - deyən Məsməli kişi Azərbaycan neftinin müharibədə oynadığı rolun böyük olduğunu deyir: “Sovet hökuməti müharibəyə hazır deyildi. Biz çox zülm çəkdik. Nefti Stalinqrada və başqa müharibə gedən şəhərlərə yola salırdıq. Gecə-gündüz çalışıb, hər çətinliyə dözürdük. Əlimiz sabun görmürdü, paltarlarımızı “solyarka” ilə, gillə yuyurduq. Bədənimiz qıpqırmızı idi. Yeməyə çörək tapmırdıq. Bakı nefti, arxa cəbhədəki fədakarlıqlar olmasaydı, müharibədə qələbə də olmazdı. Həmişə deyirəm ki, mən Stalinin dəmir rejimindən keçmişəm”.

### “HEÇ VAXT BEKAR DAYANMAMIŞAM”

Məsməli kişi deyir ki, müharibədən sonra Azərbaycanın bütün neft sahəsi Pirallahıya köçürülüb: “Burada quyular dayaz, neft isə qiymətli idi. Quyular asan qazılırdı - 800-900 metrdən neft çıxırdı”.

Məsməli Mustafayevin bütün həyatı əməklə yoğurulub. Boş vaxtlarında təsərrüfatla məşğul olub - əkib, becərib: “Müharibə qurtarandan sonra bizə icazə verdilər ki, kim nə bacarır etsin, bolluq yaransın. Mən də toyuq, qoyun saxlamışam. Tonlarla üzüm yığırdım. Beş istixanadan gül dərib Moskvaya göndərmişəm. Zirə kəndində bostan əkirdim. Heç vaxt bekar dayanmamışam. İşimlə bərabər ailəmi də unutmadım. Övladlarımı oxutdurdum”.



## ÖVLADLARININ, NƏVƏLƏRİNİN HAMISI ALİ TƏHSİLLİDİR

Məsməli kişinin beş övladı, 10 nəvəsi və səkkiz nəticəsi var. Övladlarının, nəvələrinin hamısı ali təhsillidir. Müxtəlif sahələrdə uğurla çalışırlar. “Atamız özü təhsil almadığı üçün ən böyük arzusu bizim oxumağımız idi”,- deyə oğlu Emil danışır: “Gedin oxuyun, gəlin çoban olun. Savadınız olanda qəzetin başlığını oxuyub söhbətin nədən getdiyini biləcəksiniz”, - deyirdi. Hamımızın oxumağı üçün əlindən gələni etdi”.

Məsməli kişi özü ali təhsil ala bilməsə də, mütaliəsini heç vaxt unutmayıb. Nizaminin, Füzulinin, Vaqifin, Səməd Vurğunun yaradıcılığından nümunələr dilinin əzbəridir.

### "GƏNCLƏR BİLSİNLƏR Kİ..."

Fəxri neftçinin gənclərə nəsihəti də var: “Kəndimiz Kür çayının sahilində idi. Bir gün Kür daşıb kəndimizi apardı. Bizi köçürdülər. Uzun tövlələr tikmişdilər. Mal-qara tövlənin bir başında, biz də o biri başında yaşayırdıq. Mən o şəraitdən çıxıb bura gəlmişəm. İndi o günləri yada salanda sevinirəm və tanrıya şükür edirəm. Kim deyərdi ki, ayağı çarıqlı yetim bir uşaq gəlib sahə rəisi olacaq? Bu vəzifəyə hər kəsi təyin etmirdilər. Mən maşinistlikdən sahə rəisi vəzifəsinə qədər yüksəldim. Gənclərimizə də məsləhətim budur: çalışsınlar, onlardan bir yadigar qalsın, vətənə faydalı olsunlar. Bilsinlər ki, zəhməti ilə ucalan insan həmişə yadda qalır”.

### ZƏHMƏT, SƏBİR, TƏMKİN

Məsməli kişi 100 yaş yaşamağın sirrini də açır: zəhmət, səbir, təmkin. Əmək veteranı 1952-ci ildən bəri yaşadığı, üz-gözünün öyrəşdiyi Pirallahıda övladlarının və nəvə-nəticələrinin sevgisi ilə əhatə olunaraq yaşayır. Taleyindən razıdır. Bu yaxınlarda 100 illik yubileyini təmtəraqla qeyd ediblər. “Atam kasıb olduğundan vaxtilə özünə toy edə bilməyib. Biz onun yubileyini təmtəraqlı qeyd etdik. Qohum-qonşular, yaxın dostlar böyük həvəslə iştirak etdilər. 100 illik yubileydə iştirak etmək hamı üçün maraqlı idi. Rayon İcra Hakimiyyətindən, bələdiyyədən də nümayəndələr gəlib atamı təbrik etdilər”, – deyə oğlu qeyd edir.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
18 İYUL ŞƏNBƏ 2026
www.kaspi.az

Azərbaycan klubları avrokubok mövsümünə möhtəşəm nəticələrlə start verib. Geridə qalan altı oyunda qələbə qazanan təmsilçilərimiz qapılarında cəmi bir qol görüblər. Yekunda ilk mərhələdəcə Azərbaycanın UEFA reytinqinə 1,5 xal əlavə edilib.

# KLUBLARIMIZDAN MÖHTƏŞƏM START

Azərbaycan klubları avrokubokların 2026/27 mövsümünə əla start verdilər. I təsnifat mərhələsində mübarizəyə başlayan "Sabah", "Qarabağ" və "Zirə" növbəti raunda asanlıqla keçdilər.

Azərbaycan çempionu "Sabah" qitənin bir nömrəli klub turniri - Çempionlar Liqasına (ÇL) yaxşı start verdi. Paytaxt təmsilçisi ilk raundda Uels TNS-inə rəqib oldu. Valdas Dambrauskasın komandası hər iki qarşılaşmada gücünü ortaya qoymağı bacardı. Bakılılar ev oyununda 2:0 hesablı inamlı qələbə qazandılar. Düzdür, rəqib müqavimət göstərə bildi. "Sabah"ın aramsız hücumlarına baxmayaraq, uelslilər 66 dəqiqə dözməyi bacardılar. Lakin Velyko Simiçin qolundan sonra rəqibin mübarizə əzmi qırıldı. 84-cü dəqiqədə isə bu dəfə Simiç assistent rolunda çıxış etdi. Onun ötürməsini Kahim Parris dəqiq zərbə ilə tamamladı. Oyunun sonlarında Stiv Solvetin qırmızı vərəqə almasına baxmayaraq, çempionumuz səfərə komfortlu üstünlüklə yollandı. Cavab oyununda da "Sabah" daha yaxşı görünən tərəf idi. Bakılılar səfər matçının ilk hissəsində məsələni həll etdilər. Coy-Lens Mikels və Rəhman Daşdəmirovun vurduğu qollarla artıq məsələ həll olunmuşdu. Oyunun sonlarında rəqib fərqi azaltsa da, bu, təsəllidən başqa bir şey olmadı.

Beləliklə, hər iki qarşılaşmada qələbə qazanan "Sabah" ilk dəfə qatıldığı ÇL-də ikinci təsnifat mərhələsinə yüksəldi. Burada komandamızı Finlandiyanın KuPS-i klubu gözləyir. Mütəxəssislər ikinci raundda da "Sabah"ın şanslarını yüksək qiymətləndirirlər.



## "Zirə"dən darmadağınlar

"Zirə" də Konfrans Liqasının (KL) birinci təsnifat mərhələsində münasib komandaya rəqib olmuşdu. Qəsəbə təmsilçisi Gürcüstanın "Torpedo" klubu ilə cütdə favorit hesab olunurdu. Düzdür, qonşu ölkədə liqanın davam etməsi, "Zirə"nin bir qədər hazırlıqsız olması bakılıların işini çətinə salırdı. Lakin yekunda keyfiyyət fərqi öz sözünü dedi. Azərbaycan klubu hər iki qarşılaşmada rəqibini böyük hesabla yenməyi bacardı. İlk oyun "Zirə"nin böyük üstünlüyü ilə keçdi. Yekunda qeydə alınan 3:0 hesablı qələbə bunun məntiqli nəticəsi idi. Ruan Renatonun dubl etdiyi qarşılaşmada Davit Volkov da bir dəfə həmyerlilərini cəzalandırdı.

Gürcüstandakı cavab oyunu sanki ilk qarşılaşmanın təkrarı idi. Yenə təmsilçimiz 3:0 hesabı ilə üstün oldu. Bu dəfə Eren Aydın dublla yadda qaldı. Digər topu isə rəqib qapısından Amin Seydiyev keçirdi. Rahatlıqla ikinci təsnifat mərhələsinə adlayan "Zirə"ni burada da münasib rəqib gözləyir. "Qartallar" Estoniya "Payde"si qarşısında favorit hesab edilirlər.

## "Qarabağ" üçün asan sınaqlar

Keçən mövsüm ÇL-də tarixi nəticəyə imza atan "Qarabağ" bu dəfə Avropa Liqasında gücünü sınayır. "Sabah" və "Zirə" kimi Ağdam klubunun da bəxtinə püşkdə olduqca münasib rəqib düşmüşdü. İslandiya "Vestri"si ölkəsində kubokun qalibi olsa da, mövsümün nəticələrinə əsasən, elita ilə vidalaşmışdı. Həm bu məqam nəzərə alınaraq, həm də "Qarabağ"ın avrokuboklardakı ümumi performansı əsasında komanda cütün aşkar favoriti idi. Qurban Qurbanovun yetirmələri hər iki oyunda bu statusu doğrultdular. Bakıdakı oyun heyətində çoxlu yeni oyunçular olan "Qarabağ" üçün asan gəzinti oldu. Komandanın 3:0 hesabı ilə qalib gəldiyi matçda qollardan ikisini bu yay kollektivə qoşulanlar vurdular. Zakariya Savo və Renaldo Çefasın fərqləndiyi oyunda Abdullah Zubir də adını tabloya yazdırmağı bacardı. İslandiyadakı oyun da təmsilçimizin tam üstünlüyü ilə keçdi. Bu dəfə də "atlılar" üç cavabsız qolla qələbə qazandılar. Jali Muaddib, Pedro Bikalyo və Zakariya Savo fərqləndilər. Sonuncunun digər iki topun ötürməsini etməsi isə Ağdam klubunun Kamilo Duranın gedişindən sonra hücumçu problemini tezliklə həll edə bildiyini göstərir.

"Qarabağ" növbəti mərhələdə Bolqarıstanın ÇSKA (Sofiya) klubu ilə üz-üzə gələcək. Bolqarlar daha ciddi komandadır, lakin "atlılar" bu cütdə də güclü olan tərəfdir.

## Hədəf əsas mərhələdir

İlk mərhələni birnəfəsə keçən klublarımıza ikinci raundda "Neftçi" də qoşulacaq. KL-də yarışacaq "ağ-qaralar" da digər təmsilçilərimiz kimi cütünün favoriti hesab olunur. Komanda ikinci təsnifat mərhələsində Belarusun "Dinamo" (Minsk) klubu ilə qarşılaşacaq.



Azərbaycan klubları avrokubok mövsümünə möhtəşəm nəticələrlə start verib. Geridə qalan altı oyunda qələbə qazanan təmsilçilərimiz qapılarında cəmi bir qol görüblər. Yekunda ilk mərhələdəcə Azərbaycanın UEFA reytinqinə 1,5 xal əlavə edilib. Bu göstərici ilə Azərbaycan yeni mövsüm üçün reytinq cədvəlinə liderlik edir. İkinci raundda təmsilçilərimizi daha ciddi sınaqlar gözləyir. Lakin bu cütlərdə də favorit hesab edilən tərəf bizim klublardır. Artıq futbolsevərlər əvvəlki mövsümlərdən fərqli olaraq azı iki komandanın əsas mərhələdə çıxış etməsini istəyirlər. Bu cür startın məntiqli davamı da elə məhz belə olmalıdır.